RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 82 (8398) ÇƏRŞƏNBƏ, 29 aprel 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Prezidentdən sahibkarlara növbəti dəstək planı

**Koronavirus pandemiyası dünya iqtisadiyyatına böyük zərbə vurmaqdadır. Artıq aparıcı maliyyə qurumları açıq bəyan edirlər ki, pandemiya nəticəsində yaşana biləcək böhran 2008-2009-cu illərin böhranından daha da ağır olacaq. Neftin qiymətinin də aşağı düşməsi faktını nəzərə alsaq, həqiqətən də, qarşıdakı illərdə ciddi iqtisadi böhranın yaşana biləcəyini söyləyə bilərik.**

## Azərbaycan regionda iş adamlarına ən çox yardım edən ölkədir

Qlobal pandemiyadan az itkilərlə çıxmaq üçün qabaqlayıcı tədbirlər görən Azərbaycan dövləti makroiqtisadi sabitliyi qorumaq üçün imkanlarını səfərbər edib. Ancaq buna baxmayaraq pandemiya ölkə iqtisadiyyatına ziyan vurmaqdadır. Bu rəqəmləri tam müfəssəl formada hesablamaq çətin olsa da, gündəlik itkilərin təqribən 120-150 milyon manat olduğu bildirilir. Buna baxmayaraq hökumət əhalinin sosial rifahının yaxşılaşdırılması, karantin dövründə sahibkarlara dəyən zərərin ödənməsi istiqamətində ciddi qərarlar qəbul edib.

### Sahibkarlar üçün 114 milyon manatlıq vergi güzəştləri olacaq

Öncə Prezident İlham Əliyevin təşəbbüsü ilə hazırlanan dövlət dəstəyi proqramlarına əsasən sahibkarlara karantin müddətində dəyən ziyanın qarşılığı ödənildi. 300 min sahibkarlıq subyektinə, 290 min mikrosahibkara böyük güzəştlər edildi.

Fəaliyyət sahələrində və klasterlərdə çalışan 300 min nəfər muzdlu işçinin (əmək müqaviləsi olan) də əməkhaqqının müəyyən hissəsinin ödənilməsi üçün sahibkarlara dövlət tərəfindən 215 milyon manat həcmində maliyyə dəstəyi göstərildi. Fərdi (mikro) sahibkarın 2019-cu il ərzində dövlət büdcəsinə ödənişinin məbləği 250 manatdan az olduğu təqdirdə ona 250 manat məbləğində maliyyə dəstəyi göstərildi. Ümumilikdə aprel ayında 44 min sahibkarlıq subyektində çalışan 300 mindən çox işçinin əməkhaqqının əhəmiyyətli bir hissəsini dövlət ödədi. Həmçinin dövlət dəstəyindən 290 mindən çox mikro və fərdi sahibkar faydalandı.

Vergi ödəyicilərinə ödəmələr isə aprel və may ayları daxil olmaqla 2 mərhələdə aparılır. Prezidentin sərəncamına əsasən pandemiyadan zərər çəkmiş sahibkarlara dövlət dəstəyi üçün xüsusi proqramlar da hazırlanıb. Bu proqramların icrası üçün bəzi qanunvericilik aktlarına dəyişikliklər edilməsi nəzərdə tutulur. Hazırda tədbirlər planı üzrə aparılan işlər davam etdirilir.

Pandemiyadan zərər çəkmiş sahibkarlıq subyektlərinə dəstəyin göstərilməsi ilə bağlı Vergi Məcəlləsində, bir sıra qanunvericilik aktlarında dəyişikliklərlə bağlı təkliflər Milli Məclisə təqdim edilib və artıq bu təkliflər parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində müzakirəyə çıxarılıb.

*Ardı 3-cü səh.*

# Cari ilin ilk rübündə dünyada iqtisadi artıma nail olan yeganə ölkə

**Suma ÇAKRABARTİ:** "Gün gələcək Azərbaycanla müqayisə aparılacaq"



Aprelin 28-də Avropa Yenidənqurma və İnkişaf Bankının prezidentinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə bankın prezidenti Suma Çakrabarti arasında videokonfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, videokonfrans iştirakçılarını salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Cənab prezident, xanımlar və cənablar, sabahınız xeyir.

**Suma ÇAKRABARTİ:**

- Cənab Prezident, sizi görməyimə çox şadam. Bu səhər Avropa Yenidənqurma və İnkişaf Bankının geniş tərkibli heyəti ilə Sizinlə görüşürük. Mənim müavinim Yurqen Riqterinki yəqin ki, xatırlayırsınız. O, bu yaxınlarda Bakıda səfərdə olmuşdur. Burada siyasət üzrə vitse-prezident Pyer Helbron, bankçılıq üzrə vitse-prezident Alan Piyu də bizimlədir. Daha sonra Şərqi Avropa və Qafqaz üzrə icraçı direktor Matteo Patrone, Qafqaz üzrə regional direktor Katerina Hansen, Azərbaycan üzrə nümayəndəliyin rəhbəri İvana Duarte, siyasi məsələlər üzrə müşavir Aleksander Pavlyuk, mənim ofisimdən Svetlana Pirkalo və nəhayət, Avropa Yenidənqurma və İnkişaf Bankında ölkələr üzrə direktor, sizin nümayəndəniz və bizim dostumuz Taşkın Temiz də buradadır.

*Ardı 2-ci səh.*

# "Siz çiyinlərinizdə vətənin, xalqın ağır yükünü çəkirsiniz"

## Dövlət başçısına ünvanlanan təşəkkür məktublarının əsas qayəsi belədir

COVID-19 bəlasından xilas olmaq yollarını axtaran dünya ölkələri Azərbaycan adlı vətənimizin hər guşəsində görünən və hiss etdirilən dövlət-xalq birliyindən nümunə götürüllər. Bu birliyi Prezidentin ünvanına göndərilən məktublar da təsdiqləyir.

Məktubların arasında məktəbyaşlılardan başlamış əlil, hərəkəti məhdud, Qarabağ qazisi, şəhid ailəsi, ömrünün ixtiyar çağlarında dövlət başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müraciətlərini televiziya vasitəsilə izləyib kövrələn, gecə-gündüz onların ailəsinin və balalarının sağ-salamat olmasını diləyən nənə-babalar da az deyil.

*Ardı 4-cü səh.*

# Dövlət qayğısının ən mükəmməl nümunəsi

**İlham ƏLİYEV:** "Əsas prioritetlər insanların sağlamlığı, onların sosial müdafiəsi və vəziyyətə uyğun şəkildə iqtisadi fəallığın artmasıdır"

Koronavirus pandemiyası insan sağlamlığı üçün təhdid olmaqla yanaşı, dünyanın hər yerində iqtisadi baxımdan da ciddi problemlər yaradıb. Qida sənayesi istisna olmaqla digər sahələrdə istehsal və xidmətlər tələbatın azalması səbəbindən demək olar ən minimum səviyyəyə enib. Bu səbəbdən də əksər dövlətlərdə ümumi daxili məhsul istehsalında ciddi azalmalar, geriləmələr baş verməkdədir.

### Sahibkarlara maliyyə dəstəyi göstərilir

Qlobal iqtisadi sistemə inteqrasiya olunmuş Azərbaycanda da pandemiya səbəbindən iqtisadiyyatda əvvəlki dövrlərlə müqayisədə çətinliklər müşahidə olunur. Koronavirusun ölkə iqtisadiyyatına vurduğu ziyanı tam müfəssəl formada hesablamaq çətindir. Lakin bir neçə gün əvvəl Nazirlər Kabineti yanında Operativ Qərargahda keçirilən brifinqdə İqtisadiyyat naziri Mikayıl Cabbarovun qeyd etdiyi kimi, gündəlik itkilər təqribən 120-150 milyon manatdır. O cümlədən neftin qiymətinin kəskin azalması bu sahədə gəlirləri minimuma endirib.

*Ardı 6-cı səh.*

# Canda, qanda və qəlbdə xeyirxahlıq

## Mehriban xanım Əliyevanın humanizmə çağırışı irsi qan xəstəliklərindən əziyyət çəkənlərə yaşam şansı oldu

Dünya indi üzərindən "Damokl qılıncı" kimi asılmış koronavirus adlı bir bəlayla yaşam savaşı verir. Bəşəriyyəti canı ilə imtahana çəkən COVID-19-a qarşı mübarizə aparmağa çalışır, bütün enerjisini, qüvvəsini, gücünü də ona qarşı yönəldib. Düşmən gözəgörünməz və amansızdır, azacıq bir ehtiyatsızlıq, kiçicik bir yanlışlıq yetər ki, arxasınca böyük təhlükələr, insanlıq tragediyası gətirsin.

Koronavirus təkcə yoluxduğu, hətta ölümünə səbəb olduğu insanların faciəsinə çevrilmir. Demək olar ki, bütün həyatı iflic edir, birbaşa və ya dolayı yolla hər kəsə, hər sahəyə dağıdıcı təsir göstərir. Qorxuya, təşvişə, çarəsizliyə, ümidsizliyə, psixoloji travmalara yol açır.

Amma elə qisim insanlar da var ki, bu çətin və ağır günlərdə köməyə, dəstəyə, qayğıya digərlərindən daha çox ehtiyac duyurlar.

Qan xəstələri kimi...

### Qan ver, yaşat

Məlum olduğu kimi, ölkəmizdə koronavirus pandemiyasının yayılmasının qarşısının alınması məqsədi ilə xüsusi karantin rejimi elan edildi. Amma bu müddətdə talassemiya və hemofiliya, həmçinin leykoz xəstəliyindən əziyyət çəkən uşaqlar üçün qan ehtiyatı azaldı. Lakin onlar köməksiz, dəstəksiz qalmadılar, problemləri ilə baş-başa buraxılmadılar...

Hər zaman olduğu kimi, indi də Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xüsusi diqqət və nəzarəti altında, dünyada, ölkəmizdə yaşanan bu çətin, sınaqlarla dolu günlərdə birinci xanımın himayəsində oldular.

*Ardı 7-ci səh.*

# Azərbaycan kəndlisi vergilərdən azaddır

Birləşmiş Millətlər Təşkilatı koronavirus pandemiyasının dünyada aclığa səbəb ola biləcəyi ilə bağlı xəbərdarlıq edir və bəzi ölkələrin vəziyyətdən çıxmaq üçün geni dəyişmiş toxumlardan daha geniş istifadə edəcəklərini istisna etmir. Yeri gəlmişkən bildirək ki, hazırda geni dəyişmiş məhsullar Kanada, ABŞ, Braziliya, Çin, Hindistan və Argentinada istehsal olunur.

Pandemiya dövründə planetdə aqrar sektorun ümumi vəziyyətinə nəzər salmaq, onu Azərbaycan reallıqları ilə müqayisə etmək, üstünlüklərimizə və çatışmayan bəzi məqamlara diqqət yetirmək yerinə düşərdi. Bu günlər İqtisadiyyat naziri Mikayıl Cabbarov keçirdiyi brifinqdə ölkə iqtisadiyyatının gündəlik 120-150 milyon manat itirdiyini demişdi. Təbii ki, bu itkilərin bir qismi aqrar sektorun payına düşür. BMT-nin ekologiya və ərzaq təhlükəsizliyi üzrə beynəlxalq eksperti İrina Yermakovanın dediklərindən belə qənaətə gəlmək olur ki, qlobal ərzaq təhlükəsizliyi dünya üçün indiki məqamda xüsusi əhəmiyyət kəsb edən məsələyə çevrilir. Hazırda dünyada aclıqdan hər il 821 milyon nəfər əziyyət çəkir. Koronavirusla bağlı bu rəqəmin bütünlükdə bir milyarda yaxın insanı əhatə edəcəyi ehtimalı narahatlıq doğurur.

*Ardı 6-cı səh.*

- *Özünü, doğmalarını və dostlarını qorumaq:*
- *Koronavirusa qalib gəlmək üçün*

**EVDƏ QAL!**

*Biz birlikdə güclüyük!*

# Cari ilin ilk rübündə dünyada iqtisadi artıma nail olan yeganə ölkə

*Əvvəli 1-ci səh.*

## Suma ÇAKRABARTİ: “Gün gələcək Azərbaycanla müqayisə aparılacaq”



Cənab Prezident, bizə vaxt ayırdığınıza görə təşəkkür edirəm. Bu, olduqca qeyri-adi bir görüş tərzidir. Biz Sizinlə istər Bakı, istərsə də Davosda dəfələrlə görüşmüşük. Biz qəribə və qeyri-adi bir dönəmdə yaşayırıq. Əvvəlcə Azərbaycandakı vəziyyət və həyata keçirilən tədbirlər haqqında Sizdən məlumat almaq istərdik. Daha sonra isə mən və heyətim bu böhrandan ən qısa zamanda çıxmaq üçün Azərbaycana hansı dəstəyin verilə biləcəyi ilə bağlı məlumat təqdim edəcəyik. Cənab Prezident, bizim fikrimizcə, Siz və hökumətiniz bu böhranın öhdəsindən əla gəlirsiniz. Qısa zamanda bir sıra təsirli tədbirlər həyata keçirilib ki, bununla bağlı Sizi təbrik edirəm və vəziyyət və görülən tədbirlər haqqında Sizdən məlumat almaq istəyirik.

**Prezident İlham ƏLİYEV:**

- Cənab prezident, sizə və Avropa Yenidənqurma və İnkişaf Bankının yüksək rütbəli nümayəndələrinə bu görüşə görə təşəkkür edirəm. Bu, Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycanın yaxın və etibarlı tərəfdaşı olmasının göstəricisidir. Odur ki, çətin vaxtda siz belə təşəbbüslə çıxış etmisiniz. Bu, bizə hazırda həyata keçirilən layihələrimizi nəzərdən keçirməyə, görüləcək işləri müzakirə etməyə və gələcək əməkdaşlığımızı planlaşdırmağa imkan verəcək.

Virus məsələsinə gəldikdə, biz ilk gündən real vəziyyətə əsaslanan tədbirlər görməyə başladıq. Vəziyyətin düzgün dəyərləndirilməsi və bu böhranla məşğul olunması üçün səmərəli komandanın yaradılması bizim üçün çox vacib idi. Azərbaycana bu virus qonşuluqdan gəldi və bunun qarşısını almaq üçün biz müvafiq addımlar atdıq və qonşu dövlətlərlə razılıq və birgə qərar əsasında sərhədlərimizi bağladıq. Hesab edirəm ki, biz bu qərarı vaxtında və digər ölkələrin bənzər qərarlarından tez verdik və beləliklə, zaman udmuş olduq. Biz görürük ki, bu virusla mübarizədə ən vacib məsələ vaxtdır, çünki heç bir ölkənin səhiyyə sistemi bu qədər böyük sayda yoluxmuş insanların müalicəsinə hazır deyil. Bu səbəbdən vaxtın qazanılması, səhiyyə sistemimizin hazırlanması, mütəxəssis və həkimlərimizin səfərbər edilməsi və düzgün idarəçiliyin qurulması əsas hədəflərimiz oldu.

Daha sonra biz virusun ölkə ərazisində yayılmasının şahidi olduq və mart ayından etibarən məhdudlaşdırıcı tədbirlər həyata keçirməyə başladıq. Biz Ümumdünya Səhiyyə Təşkilatı ilə daimi təmasdayıq və bu təmaslar davam edir. Biz vəziyyətin dəyərləndirilməsi üçün ölkəyə mütəxəssislərdən ibarət heyətin göndərilməsi ilə bağlı Ümumdünya Səhiyyə Təşkilatına müraciət etdik və onlar bunu etdilər və daha sonra bəyanatla çıxış etdilər ki, Azərbaycan zəruri tədbirləri görür. Onlar da öz növbələrində müəyyən tövsiyələrini verdilər. Daha sonra Ümumdünya Səhiyyə Təşkilatı bəyanat yayaraq Azərbaycanı koronavirusla mübarizə sahəsində nümunə kimi göstərmişdir.

Məhdudlaşdırıcı tədbirlərin tətbiqi qərarı asan olmamışdır. Biz anlayırdıq ki, insanlar üçün narahatlıq yaranacaq, iqtisadi inkişafımıza böyük zərbə dəyəcək, halbuki bu ilin göstəriciləri olduqca ümidverici idi. Lakin bizim iki variantımız var idi. Birinci variant insanların həyatını və sağlamlığını qorumaq, ikinci variant isə iqtisadiyyatın xilas edilməsi prioriteti idi. Bu səbəbdən ilk gündən bizim seçimimiz insanların həyatının qorunması oldu. Gördüyümüz bütün işlərin məqsədi budur və bu istiqamətdə səylərimizi tam səfərbər etmişik. Biz 120 mindən artıq test həyata keçirmişik və aparılan testlərin adambaşına düşən sayına görə aparıcı yerlərdəyik.

Biz əlavə laboratoriyalar yaratmışıq və hazırda onların sayı 18-dir. Koronavirusa yoluxmuş pasiyentlər 22 dövlət xəstəxanasında, o cümlədən yeni istifadəyə verilmiş 575 çarpayılıq müasir xəstəxanada müalicə olunurlar. Hazırda karantin rejimində 2000-ə yaxın vətəndaşımız var və bu rəqəm aşağı düşməkdədir. Bu insanlar xaricdən gələnlər və onlarla təmasda olmuş şəxslərdir. Onlar 4-5 ulduzlu mehmanxanalarda yerləşdirilib və yüksək standartlara cavab verən şəraitlə təmin ediliblər.

Vaxtaşırı sərtləşdirdiyimiz məhdudlaşdırıcı tədbirlərin müsbət nəticəsi olmuşdur və artıq iki həftədir ki, bizdə müsbət dinamika var. Yəni sağalanların sayı yoluxanların sayından artıqdır. Ölüm faizinin nisbətən aşağı olması onu göstərir ki, işlər müsbət istiqamətdə aparılır. Dünəndən biz məhdudlaşdırıcı tədbirləri yumşaltmağa başlamışıq.

İqtisadiyyatımıza təsirə gəldikdə, əlbəttə, təsir mənfi olacaqdır. Bizim ilin əvvəlində müsbət perspektivlərimiz var idi. Hələ də ilin ilk rübünə nəzərə salsaq, artım 1 faizdir, qeyri-neft sektorunda artım 3 faiz təşkil edir, qeyri-enerji sahəsində artım isə 23 faizdir.

Koronavirus nəticəsində mənfi təsirə məruz qalmış özəl sektorun müvafiq sahələrinə ciddi dəstək paketi təqdim edilmişdir. Xidmət və digər sahələrdə çalışan 600 min vətəndaşın və mikrosahibkarlıq subyektlərinin əməkhaqlarının böyük hissəsi dövlət tərəfindən ödənilib. Bununla yanaşı, 600 min aztəminatlı, işsiz və qeyri-rəsmi çalışan vətəndaşa minimal meyara uyğun olaraq ödənişlər edilib.

Təbii ki, bu, bizim üçün böyük xərcdir. Vergi güzəştləri də nəzərə alınsa, bu gün bu rəqəm 3,5 milyard manat və ya 2 milyard dollardan çoxdur. Bu, bizim büdcəmiz üçün böyük yükdür, çünki neftin qiymətinin kəskin azalması bizim valyuta ehtiyatlarımıza mənfi təsir göstərəcəkdir. Ancaq bizim üçün bu dövr xərclərimizi artırmalı və yoxsul vətəndaşlarımıza və sahibkarlara yardım etməli olduğumuz dövrdür. Eyni zamanda bu il biz ödənişli ictimai iş yerlərinin sayını da 2 dəfə artırmışıq. Burada minimal əməkhaqqı verilir və adətən bu, dövlət sektoruna aid olan iş yerləridir. Bu il belə iş yerlərinin sayı 90 min olacaqdır. Biz sosial yardım alan vətəndaşların da sayını artırmışıq. Hər bir belə ailəyə ayda 222 manat ödənilir və onların sayı 80 minə çatmışdır. Bununla yanaşı, 12 min insan üçün, - burada da 70 faiz artım var, - özünüməşğulluq imkanları yaradılıb.

Beləliklə, bu, qeyd etdiyim mənfi təsirə məruz qalmış sahələrdə çalışan, habelə işlərini itirmiş vətəndaşlarımıza təqdim edilmiş iqtisadi və sosial paket haqqında məlumatdır. Burada mən çıxışımı dayandırmaq istərdim. Hər hansı fikir və ya suallarınız varsa buyurun.

**Suma ÇAKRABARTİ:**

- Təşəkkür edirəm, cənab Prezident. Qeyd etməliyəm ki, qəbul etdiyiniz qərarların və görülmüş tədbirlərin həcmi məndə dərin təəssürat yaratdı. Bununla bərabər, addımlarınız olduqca qətiyyətlidir və Siz çevik hərəkət edirsiniz. Sizin də qeyd etdiyiniz kimi, Ümumdünya Səhiyyə Təşkilatı da bunu təqdir etmişdir. Sizinlə 2012-ci ildə baş tutmuş ilk söhbətimi xatırlayıram. Azərbaycanda yoxsulluğun rekord dərəcədə aşağı salınmasına nail olunduğunu qeyd etdik və bir çox insan bundan bəlkə də xəbərsizdir, ancaq bu, dünyada ən yüksək templərdən biri idi. Həmin nailiyyətlərin qorunub saxlanılması, yoxsulların müdafiəsi sahəsində gördüyünüz işlər xüsusilə qeyd edilməlidir. Sahibkarlara dəstək, ailələrə yardım - bunlar zənnimcə, qısa perspektivli deyil, orta perspektivli addımlardır.

Burada Mərkəzi Bankla 50 milyon dollar məbləğində “Swap” razılaşmasının başa çatdırılmasına görə dərin təşəkkürümü bildirirəm. Bu, bizə özəl sektor müştərilərimizin yerli valyutada maliyyələşdirilməsi üçün vacibdir. Buraya korporativ müştərilərimiz, orta və kiçik sahibkarlıq subyektləri və maliyyə institutları daxildir. Biz yaxın həftələrdə 5 müxtəlif tranzaksiya üzrə 20 milyon avroluq ödənişlər edəcəyik. Hesab edirəm ki, ötən bir neçə ay Azərbaycanın gözəl hekayəsi sayıla bilər. Sizin ölkə dünyada ilin ilk rübündə iqtisadi artıma nail olmuş azsaylı ölkələrdəndir, bəlkə də yeganə ölkəsiniz.

Bununla yanaşı, iqtisadiyyatın şaxələndirilməsinin vacibliyini nəzərə alaraq, böhran vaxtı qeyri-neft sektorunun xüsusilə yaxşı göstəriciləri də qeyd olunmalıdır. Çox gözəl bir hekayədir və gün gələcək Azərbaycanla müqayisə aparılacaq. Gələn il bizim illik iclasımız olacaq və növbəti 2-3 il ərzində biz ölkələr üzrə dəyərləndirmə aparacağıq. Azərbaycan burada artıq öndədir.

İstərdim qısaca olaraq planlarımız haqqında məlumat verim. Artıq 5 layihəni qeyd etdim, ancaq işlərimiz bununla məhdudlaşmır. Ötən illərlə müqayisədə keçən il Azərbaycana sərmayə həcmimiz aşağı səviyyədə olub, çünki biz neft-qaz sahəsinə yatırım etmədik və diqqəti orta və kiçik sahibkarlıq sahəsinə yönəltdik. Bu il isə, düşünürəm ki, yenidən Azərbaycana böyük sərmayə yatıracağıq və bu, böhrana cavab tədbirləri və iqtisadiyyatın canlandırılması baxımından düzgün olardı. Biz münbit şərait olduqda bu il Azərbaycana 250 milyon dollardan artıq sərmayə yatırmağı planlaşdırırıq. Bu sərmayənin qoyulması üçün bizə suveren və subsuveren zəmanət tələb olunacaq və həmkarlarımdan bu barədə ətraflı danışmağı xahiş edəcəyəm. Bu layihələr xüsusilə dövlət sektorunu əhatə edir və buraya enerji, infrastruktur və İKT sahələri daxildir. Buraya bəzi dövlət müəssisələrinin kommersiyalaşması da daxildir. Biz Sizinlə 150 milyon dollarlıq yaşıl zərfi müzakirə etmişik və bu mövzunu yenidən gündəmə gətirmək istərdik.

Bilirsiniz ki, biz əvvəllər həmin 150 milyon dollarlıq yaşıl zərfi müzakirə etmişik. Onu işə salmaq istərdik. Bu barədə fikirlərinizi bilmək istərdim. Bu işləri biz Sizin hökumətinizlə irəliyə doğru aparırıq. Elektrik enerjisi şəbəkəsinə gəldikdə, biz şəbəkənin təkmilləşdirilməsinə təxminən 100-200 milyon avro məbləğini sərmayə kimi yatırmağı təklif edirik. Bu, böhran zamanı cavab tədbirləri və bərpa baxımından çox əhəmiyyətlidir. Həmçinin bərpa olunan enerji mənbələrinə özəl yatırımlar üçün imkanlar yaranar. Daha sonra yaşıl şəhər ideyası var. Azərbaycan yaşıl şəhər təşəbbüsünə qoşulan ilk ölkələrdən oldu. Tullantıların idarə edilməsi layihəsi baxımından Gəncə bu çərçivə təşəbbüsünə mart ayında qoşuldu. Biz təklif edirik, o, ilk yaşıl şəhər layihəsi olsun.

Həmçinin Aztelekom şirkəti ilə bağlı təklifimiz var. Bizim alt suveren 15-25 milyon avroluq mühüm investisiya layihəmiz var. Rayonlarda genişzolaqlı internet imkanları genişlənəcək. Bu da çox vacibdir. Böhrandan sonra bərpa mərhələsi üçün də bunun əhəmiyyəti olacaq. Bizim yeni mühüm infrastrukturlar üzrə proqramımız var. Şuramız onun üzərində razılığa gəlib. Biz Şura üzvlərinə təşəkkürümüzü bildiririk. Yüksək səviyyədə prosedurlar razılaşdırılıb. İstərdik ki, həmin məbləği Sizə daha tez çatdıraq, adi sürətdən daha tez. Bu, həmçinin həmin yeni proqram əsasında olacaq.

Suvarmaya gəldikdə, bir neçə il öncə Siz mənə bildirdiniz ki, kənd təsərrüfatı sektorunda bu sahəyə xüsusi önəm verilir. Biz istərdik bu baxımdan pilot layihəni həyata keçirək, bu sektorda müəyyən yeni texnologiyaları tətbiq edək. Eyni zamanda biz təklif etdik ki, bu sahədə sığorta qurumu yaransın və biz onu maliyyələşdirək. Hökumətdən, həmçinin bu sahədə təsdiqləməni gözləyirik. Bundan əlavə, böyük həcmdə texniki əməkdaşlıq aparılır. Bir sıra yerli banklarla iş birliyi qurulub ki, onlara riskin idarə edilməsində, problemli kreditlərin həllində, uyğunluğun planlaşdırılmasında və sair işlərdə yardımçı olaq. Biz nəinki bank sektoru vasitəsilə, birbaşa kiçik və orta sahibkarlıq subyektləri ilə də işləyirik. Böhran vəziyyətinə hansı yanaşmanı tətbiq etmək? Bu baxımdan onlara dəstək verilməlidir. Bu da normaldır. Biz bunu da etməyə çalışırıq. Qeyd etməliyəm ki, biz sizin yaşıl iqtisadiyyata keçidə bağlı olduğunuzu bilirik. Bir çox ölkələr çəkinir. Biz isə həmin ölkələr üzrə əməliyyatları genişləndiririk. Bir tərəfdən deyə bilərik, əlbəttə, yaşıl iqtisadiyyat çox yaxşıdır, lakin ölkələr deyir ki, biz axı indi böhran içərisindəyik. Əslində, biz bunu yaşıl rəngə çevrilmə adlandırırıq. Böhran zamanı belə çalışırıq ki, əlavə nəticələri əldə edək, yaşıl iqtisadiyyat inkişaf etsin. Bir sözlə, biz gələcəkdə bərpa olunan enerji təşəbbüslərini dəstəkləyəcəyik. Artıq özəl sektor öz marağını nümayiş etdirir. Bunu nəzərə almalıyıq. Enerjiyə aid qaydaları da nəzərdən keçirməklə yardım etməliyik.

Yekun olaraq, dövlət müəssisələri və dövlət sektoru. Fikrimcə, biz növbəti həftə və ay ərzində dövlət müəssisələrinin orta perspektivdə kommersiyalaşdırılmasına, özəlləşdirilməsinə keçmək istəyirik. Bu, dövlət investisiya holdinqi vasitəsilə edilə bilər. Biz dövlət-özəl tərəfdaşlığı düsturu üzərində hökumətlə qanunvericilik sahəsində artıq işləyirik. Biz dövlət müəssisələrinin kommersiyalaşdırılması və özəlləşdirilməsinə keçidə həqiqətən kömək etmək istərdik. Biz, həmçinin Azərbaycanın yeni İnkişaf Korporasiyasının yaradılması istiqamətində çalışırıq. Bir sözlə, qeyd etmək istəyirəm ki, Avropa Yenidənqurma və İnkişaf Bankı olaraq, biz, - bilmirəm Azərbaycan dilində də bu kəlam varmı? - “İşləri məcrasına salmaq” istəyirik. Əlimizdən gələni edirik ki, Azərbaycanda və digər ölkələrdə böhrandan sonra bərpa baş versin və bu, mümkün qədər tez baş versin. Fikrimcə, Azərbaycana gəldikdə, vəziyyət daha yaxşıdır, çünki birinci rübdə artım müşahidə olunub. Lakin biz yalnız bununla arxayınlaşmamalıyıq. Biz hökumətin səylərini və özəl sektorla işi çox fəallaşdırmalıyıq ki, Azərbaycanda bu, baş versin. Bunu da edəcəyik. Mənim bütün həmkarlarımı ekranda görürsünüz. Bütün yüksək rəhbərlik Sizə dəstək vermək üçün buradadır.

**Prezident İlham ƏLİYEV:**

- Sağ olun, cənab prezident. Əvvəlcə ölkəmizlə, koronavirusla əlaqədar gördüyümüz işlə və iqtisadi gündəliyimizlə bağlı söylədiyiniz sözlərə görə minnətdaram. Bu məsələləri əvvəllər dəfələrlə müzakirə etmişik. Sonra apardığımız müzakirələri yenidən nəzərdən keçiririk. Görürük ki, planlaşdırdığımız işlərin əksər hissəsini artıq yerinə yetirmişik. Hazırda iqtisadi inkişafımızın əsas məqsədlərindən biri kölgə iqtisadiyyatının miqyasının azaldılmasıdır. Ötən il biz yaxşı irəliləyişə nail olduq. Bu il isə biz bu istiqamətdə çox uğurla irəliləyirik. Azərbaycanda çoxlu dəyişikliklər olub. Prezident Administrasiyasında, hökumətdə, parlamentdə, yerli icra hakimiyyəti orqanlarında dəyişikliklər baş verib. Onlar davam edir.

Gələcək planlara gəldikdə, mən, həmçinin şəxsən sizə, bankın rəhbərliyinə Azərbaycana önəm verdiyinizə görə təşəkkürümü bildirmək istəyirəm. Ən vacib infrastruktur və enerji infrastrukturu layihələrinə, o cümlədən “Cənub qaz dəhlizi”nə dəstək verdiyinizə görə sizə çox minnətdarıq.

İndi isə biz razılaşdırılmış gündəliyə keçirik. Mən də planlarımızla bağlı dediklərinizi şərh etmək istərdim. Yaşıl proqrama gəldikdə, biz bu məsələyə çox ciddi yanaşırıq. Mənə məlumat verildi ki, hazırda bizdə 9 layihə var. Gəncədə tullantıların idarə edilməsi layihəsinə artıq yaşıl işıq yandırılıb. “Gəncə - Yaşıl Şəhər”, fikrimcə, Azərbaycanın digər böyük şəhərləri üçün yaxşı nümunə ola bilər. Bərpa olunan enerjiyə gəldikdə, biz buna çox həvəslə yanaşırıq. Bu, indi də belədir. Yanvarda biz bərpa olunan enerji sahəsində iki təcrübəli şirkətlə 440 meqavatlıq günəş və külək enerjisi stansiyalarının tikintisi ilə əlaqədar ilkin sənədləri imzaladıq. Bildiyim qədər, Avropa Yenidənqurma və İnkişaf Bankı onlara dəstək verməyi planlaşdırır. Çox vacibdir ki, bu koronavirus həmin şirkətlərin planına müdaxilə etməsin. Bir neçə gün öncə Energetika nazirimiz mənə məlumat verdi ki, onlar öhdəliklərinə ciddi yanaşırlar. Bu, əlbəttə ki, digər böyük şirkətlər üçün də geniş qapıları açacaq. Yəqin bilirsiniz ki, tender prosesində iştirak edən 7 əsas enerji şirkəti var idi. Bu dəfə keçməyən şirkətlərə gəldikdə, biz onlara ayrıca olaraq növbəti danışıqların aparılması təklifi ilə müraciət etmişik. Həmçinin sizin o fikirlə razıyam ki, bu böhran dövründə biz çox ciddi tədbirlər görməliyik. Biz səylərimizi səfərbər etməliyik və daha çox vəsait sərf etməliyik ki, böhrandan çox asan çıxış yolu tapa bilək. Bu, elə bir vəziyyətdir ki, heç kəs buna hazır deyildi. Biz bu vəziyyətdən necə çıxacağıq, fəsadları hansı olacaq, fəsadları necə qiymətləndirməliyik, prioritetləri necə planlaşdırmalıyıq. Buna görə cənab prezident, bizim bankın və sizin dəstəyinizə, ekspert yardımınıza ehtiyacımız olacaq. Çünki söylədiyim kimi, dünyada heç bir ölkə belə vəziyyətlə qarşılaşmamışdır.

Siz, həmçinin suvarma məsələsini qeyd etdiniz. Sizə deyə bilərəm ki, həmin məsələ infrastruktur sektorunda hazırda bizim əsas prioritetimiz ola bilər, çünki bütün digər infrastruktur layihələri demək olar ki, başa çatıb. Ötən il bizdə çox ciddi quraqlıq oldu. Çox ciddi quraqlıq bu il də müşahidə olunur. Anbarlarda saxlanılan su həcmləri heç vaxt görünmədiyi qədər azdır. Ötənilki kimi quraqlığı hətta yaşlı nəsil belə xatırlamır. Bu səbəbdən suvarma ən vacib infrastruktur layihəsinə çevrilir. Bu məqsədlə bu yaxınlarda mən dövlət komissiyasını yaratdım və ona keçmiş İqtisadiyyat nazirimiz, yaxşı tanıdığınız Şahin Mustafayev rəhbərlik edir. Maliyyə naziri, İqtisadiyyat naziri, Ekologiya naziri, Kənd Təsərrüfatı naziri, dövlət suvarma qurumunun rəhbəri bu komissiyasının üzvləridir. Əvvəlcə onlar bizim bütün su ehtiyatlarımızı qiymətləndirəcəklər. Bizdə su ehtiyatlarına nəzarət üçün elektron sistemimiz olmalıdır. Sonra qiymətləndirmə infrastrukturumuz üzərində aparılacaq. Onun əksər hissəsi sovet vaxtının mirasıdır. Bizdə bəzi hallarda su itkiləri hətta 40-50 faiz təşkil edir, çünki həmin kanallar demək olar ki, bütün keyfiyyətini itiriblər. Biz xarici mütəxəssisləri dəvət edəcəyik. Həmçinin sizin dəstəyinizə nəinki maliyyə, o cümlədən ekspert bacarıqları baxımından arxalanırıq ki, bizim həm qısa, həm orta perspektivdə layihələrimiz olsun. Biz uzunmüddətli strateji plan istəmirik, çünki bizim bu halda beş ilə ehtiyacımız olacaq. Biz öz resurslarımızı ayırmağa hazırıq. Əlbəttə ki, bank dəstək versəydi, lap yaxşı olardı. Ən vacibi isə, layihənin lazımi şəkildə idarə edilməsidir. Dövlət müəssisələrinə gəldikdə, İqtisadiyyat naziri bu məsələ üzərində çalışır. Artıq qeyd edildiyi kimi, kommersiyalaşdırma, qismən özəlləşdirmə - biz, ola bilsin, bunu sizinlə müzakirə etməliyik ki, ilkin addımlar hansılar olacaq. Biz, əslində, buna hazırıq. Korporativ idarəçilik məsələsi də var. Hazırda biz bildiyiniz kimi, daha çox əlaqələndirmə məqsədilə ana təşkilat ideyasını müzakirə edirik. Çünki problemlərimizdən biri dövlət şirkətləri arasında əlaqələndirmənin çatışmamasıdır. Hətta indi ən perspektivli sektorlardan biri olan nəqliyyat sektorunda biz görürük ki, şirkətlərin korporativ maraqları dövlət maraqlarını üstələyir. Bu məqsədlə əlavə işçi qrupu yaradılacaq.

❖ ❖ ❖

Sonra Azərbaycanla Avropa Yenidənqurma və İnkişaf Bankı arasında əməkdaşlığın perspektivi ətrafında fikir mübadiləsi aparıldı. Müzakirələrdə İqtisadiyyat naziri Mikayıl Cabbarov və Avropa Yenidənqurma və İnkişaf Bankının Şərqi Avropa və Qafqaz Regionu üzrə icraçı direktoru Matteo Patrone çıxış etdilər.

Videokonfrans zamanı Avropa Yenidənqurma və İnkişaf Bankının rəhbərliyi bir daha Azərbaycanın koronavirus pandemiyasına qarşı mübarizədə həyata keçirdiyi tədbirləri yüksək qiymətləndirdi, pandemiyanın doğurduğu sosial-iqtisadi fəsadların qarşısının alınması üçün ölkəmizdə görülən səmərəli işlərin böyük əhəmiyyət daşıdığı vurğuladı.

Bildirildi ki, Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycanla gələcəkdə də müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsində maraqlıdır.

Sonda **Prezident İlham ƏLİYEV** dedi:

- Təşəkkür edirəm, cənab prezident. Bütün həmkarlara iştiraka görə təşəkkür edirəm və böhran başa çatandan sonra sizinlə tezliklə görüşməyə ümid edirəm.

## “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 3-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 106; 2001, № 12, maddə 731; 2002, № 1, maddə 4; 2004, № 8, maddə 606, № 9, maddə 666; 2007, № 3, maddə 206, № 6, maddələr 560, 598, № 11, maddə 1078; 2008, № 8, maddə 699, № 11, maddə 960; 2009, № 6, maddə 395; 2010, № 4, maddə 276; 2013, № 12, maddə 1497; 2018, № 3, maddə 399, № 5, maddə 886, № 12 (I kitab), maddə 2481; 2019, № 7, maddə 1194) 4-cü maddəsinə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

“Karantin rejiminin tətbiqi ilə əlaqədar ölkə ərazisində sərbəst hərəkətə qoyulan məhdudiyyətlər deputata, onun şəxsi və xidməti nəqliyyat vasitələrinə şamil edilmir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 aprel 2020-ci il*

## Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi”ndə dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 92-ci maddəsini və 95-ci maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 107; 1999, № 5, maddə 284; 2000, № 6, maddə 380, № 12, maddələr 832, 834; 2003, № 2, maddə 77; 2004, № 5, maddə 314; 2006, № 1, maddə 3, № 5, maddə 396, № 12, maddə 1005; 2007, № 8, maddə 755, № 11, maddələr 1049, 1081; 2009, № 6, maddə 395; 2010, № 3, maddə 171; 2013, № 4, maddə 358; 2016, № 1, maddə 35; 2019, № 1, maddə 1, № 8, maddə 1365) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi”nin 3-cü maddəsinə aşağıdakı məzmunda səkkizinci hissə əlavə edilsin:

“Karantin rejiminin tətbiq edilməsi, sanitariya-epidemioloji və bu kimi digər tədbirlərlə əlaqədar Milli Məclisin 42 deputatının müraciəti əsasında Milli Məclisin Sədri Milli Məclisin iclaslarının, habelə Milli Məclisin komitə və komissiyalarının iclaslarının müəyyən dövr üçün real vaxt rejimində videokonfrans sistemi vasitəsilə keçirilməsi barədə sərəncam qəbul edir. Videokonfrans sistemi vasitəsilə keçirilən iclaslarda qeydiyyat və səsvermə deputatların gücləndirilmiş elektron imzaları vasitəsilə həyata keçirilir.”.

**Maddə 2.** Bu Qanun 2020-ci il dekabrın 30-dək qüvvədədir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 aprel 2020-ci il*

## “Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 92-ci maddəsini və 95-ci maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 565; 2000, № 12, maddə 833; 2005, № 10, maddə 876; 2007, № 5, maddə 437; 2009, № 6, maddə 395; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71; 2016, № 1, maddə 34; 2019, № 4, maddə 576, № 6, maddə 1004) 5-ci maddəsinə aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

“Karantin rejiminin tətbiq edilməsi, sanitariya-epidemioloji və bu kimi digər tədbirlərlə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin 42 deputatının müraciəti əsasında Azərbaycan Respublikası Milli Məclisinin Sədri komitələrin iclaslarının müəyyən dövr üçün real vaxt rejimində videokonfrans sistemi vasitəsilə keçirilməsi barədə sərəncam qəbul edir. Videokonfrans sistemi vasitəsilə keçirilən komitə iclaslarında qeydiyyat və səsvermə deputatların gücləndirilmiş elektron imzaları vasitəsilə həyata keçirilir.”.

**Maddə 2.** Bu Qanun 2020-ci il dekabrın 30-dək qüvvədədir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 aprel 2020-ci il*

## Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Azərbaycan Prezidentinə təşəkkür edib

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Gebreyesus keçirdiyi mətbuat konfransında Azərbaycanın koronavirus pandemiyasına qarşı həm qlobal, həm də regional mübarizəyə töhfəsindən danışıb.

AZƏRTAC xəbər verir ki, Baş direktor bu yaxınlarda Azərbaycan Prezidentinin təşəbbüsü ilə keçirilən videokonfrans formatında toplantıda koronavirusa qarşı mübarizə barədə müzakirələr aparıldığını, özünün də həmin toplantıda iştirak etdiyini bildirib. Tedros Adhanom Gebreyesus bu kimi addımları vacib hesab etdiyini vurğulayıb.

ÜST-nin baş direktoru Azərbaycanın koronavirus pandemiyasına qarşı mübarizəyə verdiyi qlobal töhfəni yüksək qiymətləndirib. O deyib ki, Azərbaycan qlobal səviyyədə bu mübarizəyə 5 milyon ABŞ dolları vəsait ayırıb. “Mən Azərbaycan Prezidentinin milli, regional və qlobal səviyyədə bu mübarizədə güclü səylərini görürəm. İmkandan istifadə edərək cənab Prezidentə təşəkkürümü bildirmək istəyirəm ki, bütün bu üç səviyyədə səyləri birləşdirir, dəstək verir”, - deyə Tedros Adhanom Gebreyesus bildirib.

## Milli Məclisin komitə iclasında Cinayət və İnzibati Xətalar məcəllələrinə dəyişikliklərlə bağlı ictimai müzakirələr keçirilib



Aprelin 28-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Milli Məclis Sədrinin birinci müavini, komitənin sədri Əli Hüseynli iclasın Prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü ilə Milli Məclisə təqdim olunmuş Cinayət və İnzibati Xətalar məcəllələrinə təklif olunan dəyişikliklərlə bağlı ictimai müzakirələrə həsr olunduğunu bildirib.

Bildirilib ki, bu dəyişikliklər “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” Azərbaycan Prezidentinin 2019-cu il 3 aprel tarixli fərmanının icrası ilə əlaqədardır, ölkəmizdə cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirləri davam etdirmək məqsədilə hazırlanıb. Dəyişikliklər birinci və ikinci oxunuşda Milli Məclisin iclasında ətraflı müzakirə olunub, deputatlar, xüsusilə də məruzəçi Kamal Cəfərov dəyişikliklərin mahiyyəti barədə fikirlərini bildiriblər. Ona görə də bu ictimai müzakirələr zamanı işçi qrupu ilə birlikdə əsasən üzərində israr olunan məqamlar barədə danışacağıq və bir sıra suallara aydınlıq gətiriləcək.

Əvvəlcə iclasda deputatlar Rəşad Mahmudov və Aydın Hüseynov təcili tibbi yardımda çalışan tibb işçilərinin təhlükəsizliyinin təmin edilməsi və büdcə vəsaitlərinin qorunması ilə bağlı fikirlərini bildiriblər. Sonra Prezident Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin baş məsləhətçisi Ceyhun Kazımov qanun layihəsinin ötən oxunuşları zamanı deputatların plenar iclasda səsləndirdikləri fikirlərə münasibət bildirib, bir sıra məsələlərə aydınlıq gətirib.

İclasda komitə üzvləri Qüdrət Həsənquliyev, Erkin Qədirli, Tahir Kərimli, Əminə Ağazadə, Bəhruz Məhərrəmov, Sabir Hacıyev, Nurlan Həsənov, hüquq mühafizə orqanlarının və ictimaiyyətin nümayəndələri Cinayət və İnzibati Xətalar məcəllələrinə təklif olunan dəyişikliklərlə bağlı fikirlərini bildiriblər, ölkəmizdə cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə həyata keçirilən tədbirləri yüksək qiymətləndiriblər.

Bununla da Cinayət və İnzibati Xətalar məcəllələrinə dəyişiklik edilməsi haqqında qanun layihələri ilə bağlı ictimai müzakirələr başa çatıb.

## ATƏT PA-nın videokonfrans formatında büro iclası keçirilib

Aprelin 27-də ATƏT PA-da nümayəndə heyətimizin rəhbəri və qurumun vitse-prezidenti Azay Quliyev təşkilatın videokonfrans formatında keçirilmiş onlayn büro iclasında iştirak edib.

Milli Məclisin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, büro iclasında koronavirus (COVID-19) pandemiyası şəraitində Parlament Assambleyasının fəaliyyəti barədə fikir mübadiləsi aparılıb, komitə və alt-komitə sədrlərinin, xəzinədarın, eləcə də xüsusi nümayəndələrin hesabatları dinlənilib.

İclasda ATƏT-in fəaliyyətdə olan sədri, Albaniya Respublikasının Baş Naziri və Xarici İşlər naziri Edi Rama, Avropa Komissiyasının Humanitar yardım və böhranın idarə olunması üzrə komissarı Yanez Lenarçiç məruzə ilə çıxış ediblər. Müzakirələrdə Azay Quliyev çıxış edərək koronavirus pandemiyasının qlobal miqyasda yaratdığı fəsadların aradan qaldırılması, iqtisadi böhran, münaqişələr, irqçilik, qeyri-qanuni miqrasiya, qaçqın və məcburi köçkünlərin vəziyyəti kimi məsələlərin diqqətdə saxlanılmasının zəruriliyini vurğulayıb. O, böhran vəziyyətindən çıxmaq üçün ATƏT-in Zirvə toplantısının - üzv ölkələrin dövlət və hökumət başçılarının Sammitinin keçirilməsini təklif edib. Azay Quliyev vurğulayıb ki, ATƏT ərazisində pandemiyanın ağır nəticələrini yalnız vahid strategiya, dövlət və hökumət başçılarının fəaliyyətinin effektiv koordinasiyası və birgə əməkdaşlığı nəticəsində aradan qaldırmaq mümkündür. ATƏT-in sonuncu Zirvə toplantısının 10 il əvvəl, 2010-cu ildə Astanada baş tutduğunu xatırladan deputatımız növbəti Sammitin keçirilməsinin vacibliyini qeyd edib.

ATƏT PA-nın Siyasi məsələlər və təhlükəsizlik üzrə Ümumi Komitəsinin fəaliyyəti ilə bağlı müzakirələrdə deputatımız Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal edilmiş Dağlıq Qarabağ bölgəsində 2020-ci il martın 31-də keçirilən qanunsuz “prezident və parlament seçkilərinə” adekvat qiymət verdiyinə görə büro üzvlərinə təşəkkür edib və bu kimi halların qarşısının alınması istiqamətində səyləri artırmağa çağırıb.

Tədbirdə Azay Quliyev pandemiya fonunda “Bioloji silahların yayılmamasına dair Konvensiyanın” tələblərinin yerinə yetirilməsi ilə bağlı monitorinqin aparılmasının vacibliyini vurğulayıb.

İclasda ATƏT PA-nın Vankuverdə keçirilməsi planlaşdırılan illik yay və San-Marinoda nəzərdə tutulan payız sessiyalarının təxirə salınması, qurumun prezidenti başda olmaqla büro üzvlərinin də səlahiyyətlərinin 2021-ci ilin iyuluna kimi uzadılması, Daimi Komitənin və ümumi komitələrin onlayn iclaslarının təşkili haqqında razılıq əldə edilib.

## “İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin 97-ci kitabı çapdan çıxıb




“İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin 97-ci kitabı çapdan çıxıb. AZƏRTAC xəbər verir ki, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin 97-ci kitabındakı materiallar 2019-cu ilin oktyabr-noyabr aylarını əhatə edir.

Ötən il noyabrın 14-15-də Bakıda Dünya Dini Liderlərinin II Sammiti keçirilib. Prezident İlham Əliyev Sammitin açılış mərasimində geniş nitq söyləyib. Beynəlxalq təşkilatların və dünya dini liderlərinin Azərbaycanda dinlərarası dialoqun yüksək səviyyədə təşkil edilməsi haqqında dəfələrlə fikir söylədiyini xatırladan, bu yüksək qiymətin reallığı əks etdirdiyini bildirən dövlət başçısı deyib: “Azərbaycan o ölkədir ki, öz inkişafını, öz gələcəyini milli köklər üzərində qurubdur. Ənənəvi dəyərlər bizim üçün ən böyük sərvətdir. Biz çox şadıq ki, Azərbaycanda yetişən gənc nəsil milli ruhda, vətənpərvərlik ruhunda və eyni zamanda ənənəvi dəyərlər ruhunda tərbiyə alır”. Prezidentin milli dəyərlər, tolerantlıq, dinlərarası dialoqun əhəmiyyəti barədə bu və digər fikirlərinin yer aldığı dərin məzmunlu nitqinin mətni 97-ci kitaba daxil edilib.

Nəşrdə Azərbaycan Prezidentinin Bakıda keçirilən Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə görüşündə söylədiyi geniş nitqinin mətni, ölkəmizə gələn dövlət və hökumət rəhbərləri ilə görüş və danışıqlarına dair materiallar da toplanıb.

Kitabda Prezident İlham Əliyevin Azərbaycana səfər etmiş Koreya, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, Rusiya və digər dövlətlərin yüksəkvəzifəli nümayəndələrini, MDB Müdafiə Nazirləri Şurası iclasının iştirakçılarını, ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul etməsinə dair informasiyalar verilib.

Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet məsələ kimi qaldırılır ki, bu da hər bir cilddə öz əksini tapır.

Oxucular dövlət başçısının Qəbələ və Ağdaş rayonlarına səfərləri zamanı bölgələrdə infrastruktur obyektlərinin açılış mərasimlərində çıxışlarının mətnləri, həmçinin ictimaiyyət nümayəndələri ilə görüşlərinə aid materiallarla bu kitabda tanış ola bilərlər.

Yeni nəşrdə Prezident İlham Əliyevin məsul vəzifələrə təyin etdiyi şəxsləri qəbul etməsinə dair materiallar, “Neft daşları”nın 70 illiyi münasibətilə Azərbaycan neftçilərinə təbrik məktubu və digər məktubları da yer alıb.

Kitabda “Qeydlər”, “Şəxsi adlar”, “Coğrafi adlar” göstəriciləri verilib.

“Azərnəşr” tərəfindən buraxılan 97-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

## Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib



Aprelin 28-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin növbəti iclası olub.

AZƏRTAC xəbər verir ki, gündəliyə 4 məsələnin daxil edildiyini bildirən komitə sədri Tahir Mirkişili əvvəlcə Hesablama Palatasının 2019-cu il üzrə fəaliyyəti haqqında hesabat barədə məlumat verib.

Hesabatı təqdim edən Hesablama Palatasının sədri Vüqar Gülməmmədov vurğulayıb ki, sənəd qanunun tələblərinə uyğun hazırlanıb. Mütərəqqi təcrübə öyrənilib, hesabatda 2018-2020-ci illər üzrə qəbul edilmiş Strateji İnkişaf Planı ilə nəzərdə tutulmuş məqsədlərə dair tədbirlər, Hesablama Palatasının ötən ildəki həm nəzarət, həm də inzibati fəaliyyəti üzrə əsas nəticələr əks etdirilib.

Qeyd olunub ki, dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının layihəsi, eləcə də dövlət büdcəsinin icrasıyla bağlı Milli Məclisdən daxil olan qanun layihələrinə dair Hesablama Palatasının verdiyi rəylərdə həm icra, həm də layihə sənədləri ciddi təhlil edilib, mümkün risklər sadalanıb, problemlər göstərilib və onların aradan qaldırılması məqsədilə tövsiyələr verilib. Həmin tövsiyələrin 19-u büdcə qanunvericiliyi, 16-sı gəlirlərin inzibatçılığı, 18-i maliyyə inzibatçılığı və hesabatlılıqla bağlı olub.

Palata sədri məlumat verib ki, 2019-cu ildə 47 audit və 6 analitik fəaliyyət həyata keçirilib. İlk dəfə olaraq 4 səmərəlilik auditi aparılıb. Hesabatda 43 maliyyə və uyğunluq auditinin nəticələri icmallaşdırılıb, yol verilən pozuntular təsnifləşdirilib. Ötən il Hesablama Palatası 561 nöqsan müəyyən edib. Əsas pozuntular büdcə qanunvericiliyi, dövlət satınalmaları, dövlət əsaslı vəsait qoyuluşları sahələrində baş verib. Mühasibat uçotu və hesabatlılıqla bağlı pozuntular da üstünlük təşkil edib.

Vüqar Gülməmmədov deputatlara həyata keçirilmiş nəzarət tədbirləri, müxtəlif büdcə və hesablara bərpa edilmiş vəsaitlər, nöqsanlara yol vermiş vəzifəli şəxslərə tətbiq edilən inzibati tənbeh tədbirləri, səmərəlilik auditləri nəticəsində aşkar olunmuş səmərəsiz xərclər və s. barədə də məlumat verib.

Hesabat dinlənildikdən sonra komitədə müzakirələr aparılıb. Deputatlar Vahid Əhmədov, Vüqar Bayramov, Əli Məsimli, Aydın Hüseynov, Məşhur Məmmədov müsbət fikirlərini bildirib, təkliflərini diqqətə çatdırıblar. İclasda iştirak edən “Konstitusiya” Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev fikirlərini bölüşüb. Çıxışlarda hesabatın təqdimatındakı yeniliklər və mütərəqqi cəhətlər xüsusi vurğulanıb.

Komitə sədri Tahir Mirkişili çıxışları yekunlaşdırdıqdan sonra Hesablama Palatasının sədri müzakirədə səslənmiş təkliflərə münasibət bildirib, suallara cavab verib.

Yekunda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi müsbət rəylə Hesablama Palatasının 2019-cu ildəki fəaliyyətinə dair hesabatı Milli Məclisin plenar iclasına tövsiyə edib.

Sonra komitədə gündəlikdəki növbəti məsələlərə münasibət bildirilib. Yekdil qərarla “Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin ərazisindən tranzit qaydası haqqında 1999-cu il 4 iyun tarixli Sazişdə dəyişikliklər edilməsi barədə” Protokolun təsdiq edilməsi haqqında”, “Azad ticarət zonasının yaradılması haqqında Sazişin iştirakçısı olan dövlətlər arasında dövriyyədə olan əmtəələrin gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti qaydası haqqında 1999-cu il 8 oktyabr tarixli Sazişdə dəyişikliklərin edilməsi barədə” Protokolun təsdiq edilməsi barədə” və “1994-cü il 9 sentyabr tarixli Avrasiya Patent Konvensiyanın Sənaye nümunələrin mühafizəsinə dair” Protokolun təsdiq edilməsi haqqında qanun layihələri parlamentin plenar iclasına tövsiyə olunub.

## Prezidentdən sahibkarlara növbəti dəstək planı

*Əvvəli 1-ci səh.*

Təklif edilən dəyişikliklərdən biri pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə (o cümlədən kiçik və orta sahibkarlığa) bir sıra istiqamətləri əhatə edən vergi güzəştlərinin və tətillərinin verilməsini nəzərdə tutur. Bu dəyişikliklərdə nəzərdə tutulmuş vergi güzəştləri paketinin ümumi dəyəri 114 milyon manata yaxındır.

Dəyişikliyə görə pandemiyanın bilavasitə təsir etdiyi, sənəddə nəzərdə tutulan fəaliyyət sahələri üzrə vergi ödəyicilərinə əmlak və torpaq vergiləri üzrə tam məbləğdə, əldə edilən mənfəətin (gəlirin) 75 faizi miqdarında vergi güzəştlərinin verilməsi təklif olunur. Bundan başqa, sadələşdirilmiş verginin ödəyicisi olan ictimai iaşə fəaliyyəti və sərnişin daşımaları fəaliyyəti həyata keçirən vergi ödəyicilərinə yuxarıda qeyd edilən əmlak, torpaq vergiləri üzrə güzəştlərlə yanaşı sadələşdirilmiş vergi məbləği üzrə 50 faiz güzəştin verilməsi nəzərdə tutulur.

### Vergi ödənilməsi müddəti uzadılır

Göstərilənlərlə yanaşı pandemiyanın mənfi təsir etdiyi yuxarıda göstərilən iqtisadi fəaliyyət sahələri üzrə bir sıra digər güzəştlərin də verilməsi planlaşdırılır. Belə ki, fiziki şəxslərdən daşınmaz əmlakın icarəsi üzrə ödəmə mənbəyində tutulan verginin dərəcəsinin 14 faizdən 7 faizə endirilməsi, 1 il müddətinə cari vergi ödəmələrindən və cari vergi ödəmələri ilə bağlı arayışların verilməsindən azad edilməsi nəzərdə tutulur.

Həmçinin 2019-cu il üçün son verginin ödənilməsi müddətinin 2020-ci il 1 sentyabr tarixinədək uzadılması, mikro sahibkarlıq subyekti olmayan vergi ödəyicilərinin əvvəlki il üzrə hesablanmış mənfəət (gəlir) və əmlak vergilərinin cari ilin 1 sentyabr tarixinədək uzadılması, ödənilməmiş vergi, məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarına görə faizlərin hesablanmasının 2020-ci ilin 1 aprel tarixindən 2021-ci ilin 1 yanvar tarixinədək təxirə salınması da bu güzəştlərə daxildir.

Mikro sahibkarlıq subyektlərinə sadələşdirilmiş vergi üzrə 50 faiz güzəştin verilməsi nəzərdə tutulur.

Həmçinin bütün sahibkarlıq subyektlərini əhatə edən vergi ödəyicisi tərəfindən həyata keçirilən zəruri profilaktik, o cümlədən dezinfeksiya tədbirlərinə görə çəkilmiş xərclərin məhdudiyyət nəzərə alınmadan gəlirdən çıxılması, əhalinin ərzaq və tibbi ehtiyacları üçün zəruri olan bəzi məhsul növlərinin ƏDV-dən müddətli azad edilməsi kimi vergi güzəştlərinin verilməsi də bu güzəştlər sırasındadır.

Aprelin 27-dən başlayaraq xüsusi rejimli karantin şəraitində məhdudiyyətlərin bir qismi yumşaldılıb. Ancaq bu məsələdə yük yenə də sahibkarların üzərinə düşür. Çünki pandemiya uzun müddət sürə bilər və bu müddət insanların davranışından daha çox asılıdır. Həlledici amil isə fərdi gigiyena və sosial məsafənin qorunmasıdır. Sahibkarlar iqtisadiyyatın aidiyyəti sektoru üçün səciyyəvi olan sanitar-gigiyena qaydalarına ciddi əməl olunmasını təmin etməlidirlər. Ona görə ki, yeni iqtisadi şərait özünəməxsus davranış qaydaları tələb edir.

İqtisadiyyat naziri Mikayıl Cabbarov iş adamlarına səslənərək vurğulayıb ki, biznesin davamlı fəaliyyəti və gəlirlərin stabilliyi də məhz yeni iqtisadi həyat tərzinə uyğunlaşmadan asılı olacaq. Bu qaydalara əməl edilmədikdə isə yenidən ciddi karantin şərtlərinin tətbiqi qaçılmaz olacaq. Bu da, öz növbəsində, sahibkarların yenidən iqtisadi itkilərlə üzləşməsi, külli miqdarda maddi zərər və ya müflisləşmə ilə nəticələnə bilər.

### Sosial sığorta yükü azaldılır

Göründüyü kimi, Azərbaycan hökuməti beynəlxalq müstəvidə baş vermiş problemin yarada biləcəyi fəsadların neytrallaşdırılması istiqamətində zəruri olan bütün addımları atır və hazırda bu tədbirlərin icrası davam etdirilir.

Pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsi dövlət tərəfindən ödənilir, fərdi və mikro sahibkarlara maliyyə dəstəyi göstərilir. Bundan başqa, pandemiyadan zərər çəkən sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə vergi güzəştləri və tətillərinin verilməsi, sosial sığorta yükünün azaldılması, kredit faizlərinin subsidiyalaşdırılması və zəmanət alətlərinin təkmilləşdirilməsi nəzərdə tutulur.

Azərbaycanda makroiqtisadi sabitliyin təmini, məşğulluqla bağlı problemlərin həll edilməsi, həm də makroiqtisadi və maliyyə vəziyyətinin sabit saxlanılması üçün 3,5 milyard manatdan artıq vəsait ayıran Prezident İlham Əliyev hər zamankı kimi, sahibkarların ən böyük hamisi olduğunu bir daha təsdiqlədi.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Vətəndaşlar dövlət başçısına minnətdarlıq edirlər



# “Siz çiyinlərinizdə vətənin, xalqın ağır yükünü çəkirsiniz”

## Dövlət başçısına ünvanlanan təşəkkür məktublarının əsas qayəsi belədir

*Əvvəli 1-ci səh.*

### “Arzum Sizi daim gülərüz, Azərbaycanımızı isə firavan görməkdir”

12 yaşlı **Aytən Ədilova** Şamaxıdan yazır: “Hörmətli cənab Prezident, Sizə ünvanlanan minnətdarlıq məktublarını efirdə dinlədikdə mən də ürəyimdən gələn səmimi hisslərimi bildirmək istədim. 12 yaşım var. Şamaxıdakı M.Hadi adına 9 saylı məktəbin VI sinfində oxuyuram. Dünyada, eləcə də Azərbaycanda yayılmış koronavirus infeksiyasına qarşı ölkəmizdə görülən işlərə görə Sizə “çox sağ olun!” deyirəm. Sizin sayənizdə, hörmətli Prezidentimiz, respublikamızda bu virusun yayılmasının qarşısı vaxtında alınır. Siz biz uşaqları qorumaq üçün dərsləri dayandırdınız. Lakin evdə qalsaq da, təhsildən, dərslərimizdən geri qalmırıq.

Bilirik ki, Siz uşaqları çox sevirsiniz. Mən də Sizi çox sevirəm. Bu sevgimi beş yaşından iştirak etdiyim bütün tədbirlərdə Ümummilli Liderimiz Heydər Əliyevə və Sizə həsr olunmuş şeirləri böyük həvəslə söyləməklə bildirirəm.

Deyirlər uşaqların Tanrıdan istəkləri mütləq yerinə yetir. Mənim arzum Sizi daim gülərüz, Azərbaycanımızı isə firavan görməkdir. Bizi qoruduğunuza görə Sizə təşəkkür edirəm. Nə yaxşı ki, Siz bizim Prezidentimizsiniz. Biz Sizinlə fəxr edirik!”

Məktublardan birinin müəllifi Zəngilan rayonunda anadan olub 80 yaşını yola salan dünyagörmüş el ağsaqqalı, 30 ilə yaxındır ki, erməni qəsbkarlarının təcavüzü nəticəsində məcburi köçkün həyatı yaşayan, Qarabağ müharibəsi veteranı, Azərbaycan Yazıçılar Birliyinin üzvü **Oqtay İsgəndər oğlu Ələkbərovdur.** Vətənpərvərlik duyğulu mahnıları ilə sevilən müğənni Azərinin ifasında səslənən məşhur “Türkün bayrağı” mahnısının sözlərinin müəllifi məktubunda yazır ki, Ulu Öndər Heydər Əliyevin ideyalarının layiqli davamçısı kimi Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva dövlət-xalq-iqtidar birliyini formalaşdıraraq, onu gündən-günə möhkəmləndirir: “Hörmətli Prezident! Çətin sınaqlarda qayğı, dərin sevgi ilə vətəndaşların yanında olmusunuz. Xalqa maddi-mənəvi kömək göstərmisiniz. Xalqın qəlbində ümid çırağı yandırmısınız. Siz çiyinlərinizdə vətənin və xalqın ağır yükünü çəkirsiniz. Vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirdiyiniz uğurlu islahatlar və layihələr, çoxşaxəli fəaliyyətiniz dəyərli və qiymətlidir. Qloballaşan dünyamızda Sizin dərin təfəkkürünüz, uzaqgörənliyiniz, siyasi hadisələrə vaxtında düzgün qiymət vermək bacarığınız, yüksək mədəniyyətiniz inkişaf etmiş bir çox ölkələrin rəhbərlərinin Sizə hörmət və ehtiramını qazandırıb”.

Məktub aşağıdakı səmimi fikirlərlə bitir: “Dünyanın 200-dən çox ölkəsini çənginə almış koronavirusla mübarizədə vaxtında qabaqlayıcı tədbirlər görməyinizin nəticəsidir ki, ölkəmizdə insan itkisi az oldu. Əminik ki, xalqımız bir yumruq kimi birləşərək bu mübarizədən başıuca çıxacaq.

Əziz Prezidentimiz! Sizin adınız vətənin və xalqımızın tarix səhifəsinə qızıl hərflərlə yazılacaq. Siz ən dərin hörmət və ehtirama layiqsiniz. Uca Tanrı Sizi qorusun!”

### “Gördüyünüz işlər o qədər böyükdür ki, onlar dünyanın hər yerindən görünür”

Bəli, şagirdlərlə yanaşı, müəllimlər arasında da dövlət başçısına pandemiyaya qarşı mübarizədə göstərdiyi qətiyyət və vətənpərvərliyə, xalq sevgisinə görə minnətdarlıq məktubu yazanlar az deyil. **Yaşar Qarayev** Əməkdar müəllimdir. Ağsu rayonunun Bico kəndində yaşayır. Qocaman müəllim məktubunda yazır ki, Ağsu rayonunun Bico kəndinin sakinləri də xalqımızın uğurlu sabahına, xoşbəxt gələcəyinə hesablanmış dövlətin daxili və xarici siyasətini ürəkdən bəyənir, möhtərəm Prezidentə minnətdarlıqlarını bildirirlər: “Bu gün Ulu Öndərin ruhu ona görə şaddır ki, Siz onun mənsub olduğu, sevdiyi xalqa ləyaqətlə xidmət edirsiniz. Buna görə xalqımız Sizi mərd atanın mərd oğlu kimi tanıyır.

Əziz Prezidentimiz, apardığınız işlər o qədər əzəmətli və böyükdür ki, onlar dünyanın hər yerindən görünür. Son illər kəndimizdə də çox böyük işlər görülüb: məktəb və xəstəxana binaları istifadəyə verilib, evlərimizə qaz və su xətləri çəkilib, kəndarası yollar asfaltlanıb və s. Bu qayğılı günlərdə də aztəminatlı, həssas təbəqəyə hər cür qayğı göstərilir. Bütün işlərinizə görə kənd sakinləri adından Sizə “çox sağ olun!” deyir, hörmət və ehtiramımızı bildiririk”.

Bakı Dövlət Universitetinin Geologiya fakültəsinin müəllimi **Ələkbər Mirzəyev** məktubunda ölkə başçısının həyata keçirdiyi sosial-iqtisadi islahatların Azərbaycanın sürətli və dinamik inkişafında böyük rol oynadığını qeyd edir. O, bildirir ki, son illər ərzində aparılan çevik islahatlar nəticəsində ölkəmiz uğurlu inkişafın növbəti mərhələsinə qədəm qoydu. İstər sosialyönümlü, istərsə də kadr islahatları qloballaşan dünyaya adekvat olan yeni bir idarəetmə sisteminin yaranmasına səbəb oldu: “...Respublikamızda dövlət gənclər siyasətinin uğurla həyata keçirilməsi də təqdirəlayiqdir. Gənclər siyasəti əsasən son dövrlər aparılan kadr islahatlarında özünü kəskin şəkildə büruzə verdi. Çünki yeni kadr islahatlarında müasir dünyagörüşlü, beynəlxalq aləmdə gedən prosesləri analiz etmək qabiliyyətinə malik yeni, savadlı gənc kadrlara üstünlük verilməsi buna əyani sübutdur. Biz gənclərə göstərdiyiniz etimada görə də Sizə, cənab Prezident, BDU gəncləri adından təşəkkürümüzü bildiririk”.

### Dünya “Azərbaycan təcrübəsi”ni təhlil edir

Məktubda daha sonra dünyanı bürüyən COVID-19 kimi yeni növ koronavirus pandemiyasının ölkəmizdən də yan keçmədiyi xatırladılır: “Qəbul edilən xüsusi karantin rejimi çərçivəsində sosial izolyasiya tədbirlərinin vaxtında həyata keçirilməsi nəticəsində xalqımız pandemiyadan minimum zərər çəkdi. Bu dövr ərzində Sizin rəhbərliyinizlə qəbul olunan bir sıra vacib qərarlar sayəsində əhalinin həssas təbəqəsi olan yaşlı və muzdlu əməklə məşğul olanların sosial rifah halı stabil saxlanıldı. Buna misal olaraq deyə bilərəm ki, işsizliyə görə 190 manat sosial müavinətin təyin olunması və bunun 600 min vətəndaşımızı əhatə etməsi pandemiya dövründə insanlar arasında böyük rəğbətlə qarşılandı”.

Məktub müəllifinin də qeyd etdiyi kimi, ölkə iqtisadiyyatının dinamikliyini bərpa etmək üçün görülən tədbirlər dünya ölkələri arasında böyük marağa səbəb oldu. Pandemiya dövründə aparılan bütün işlər artıq dünya ölkələri tərəfindən araşdırılır, “Azərbaycan təcrübəsi” təhlil edilir: “Möhtərəm Prezident! Sizin kimi güclü bir liderimiz olduğundan həmişə qürur duymuşuq. İnanırıq ki, Sizin yüksək idarəetmə qabiliyyətiniz, dünyada gedən prosesləri təhlil etmək bacarığınız nəticəsində dövlətimiz və xalqımız bundan sonra da rifah içində yaşayacaq, ölkəmiz yenə əvvəlki dinamik inkişaf tempinə qayıdacaq.

Respublikanın gənc müəllimlərindən biri olaraq Sizə dərin minnətdarlığımı bildirir, uzun ömür, cansağlığı, gələcək işlərinizdə müvəffəqiyyətlər arzulayıram”.

Azərbaycan Texniki Universitetinin tələbəsi **Ayxan Allahverdiyev** də Prezident İlham Əliyevə təşəkkür məktubu yazanların sırasındadır. Məktubu aşağıdakı cümlələrlə başlayır: “Hörmətli cənab Prezident! Mən bir gənc olaraq öz vətənimi, torpağımı, millətimi sevirəm. Sizin uğurla apardığınız siyasəti xalqımız hər zaman dəstəkləyir. Möhtərəm Prezident, daim insanların rifahını, əmin-amanlığını düşündüyünüz, dəstək olduğunuz və qayğısına qaldığınız göz önündədir. Bunun üçün Sizə minnətdarlığımızı bildiririk. Çox təəssüflər olsun ki, son dönəmlərdə dünyada və regionumuzda geniş yayılmış koronavirus (COVID-19) pandemiyası ölkəmizə də öz təsirini göstərdi. Virusla uğurlu mübarizə üçün siyasi iradəniz, qayğıkeşliyinizlə yaradılmış şərait nəticəsində ölkəmizdə bu təhlükəli bəlanın daha geniş yayılmamasının qarşısı alındı”.

Məktub müəllifi göstərdikləri fədakarlığa görə bütün səhiyyə işçilərinə öz minnətdarlığını bildirir və onları da alqışladığını qeyd edərək yazır: “Cənab Prezident, məhz Sizin xalqa diqqətinizin və uğurlu siyasətinizin göstəricisidir ki, bu gün Azəbaycan digər qonşu və inkişaf etmiş ölkələrdəki kimi bu bəlanın əlində aciz qalmadı. Əminəm ki, bu bəladan qısa zamanda Sizin dəstəyinizlə, səhiyyəmiz və fədakar həkimlərimizlə birgə xilas olacağıq”.

### “Göstərdiyiniz fədakarlıq tarixə qızıl hərflərlə yazılacaq”

Gədəbəy rayonundan **Səbinə Abdullayeva** isə Azərbaycan Prezidentinə ünvanladığı məktubunda yazır: “Hörmətli Prezidentimiz! Sizin rəhbərliyiniz ilə Azərbaycan dünyanın ən nüfuzlu, qüdrətli dövlətləri sırasına yüksəlmiş, beynəlxalq aləmdə böyük nüfuz qazanmışdır. Dünyanı çənginə alan COVID-19 pandemiyası qüdrətli Azərbaycandan yan keçməsə də, Sizin uzaqgörənliyiniz sayəsində ölkəmizdə bu virusa qarşı mübarizə çox yüksək səviyyədə təşkil olundu. Qısa zaman ərzində əhalinin qorunması ön plana çəkildi. Pandemiya ilə bağlı mübarizədə göstərdiyiniz fədakarlıq tarixə qızıl hərflərlə yazılacaq. Koronavirus pandemiyasının Azərbaycanda geniş yayılmasının qarşısının alınması istiqamətində tədbirlər yüksək səviyyədə davam etdirilir. Bu istiqamətdə atdığınız qətiyyətli addımlara, xalqımıza göstərdiyiniz diqqət və qayğıya görə Gədəbəy gəncləri adından Sizə öz minnətdarlığımızı bildirir, çətin və şərəfli fəaliyyətinizdə uğurlar arzulayırıq”.

**Kamran Məmmədov** Azərbaycan Texniki Universitetinin Metallurgiya və materialşünaslıq fakültəsinin 4-cü kurs tələbəsidir. Gəncliyə dövlət qayğısından bəhs edən tələbə məktubunda qeyd edir: “Öz vətənini, torpağını, millətini sevməklə yanaşı, cənab Prezident, Sizin uğurla apardığınız siyasəti hər zaman dəstəkləyirik. Daim xalqımızı düşündüyünüz və qayğısına qaldığınız göz önündədir. Bunun üçün Sizə minnətdarıq. Son zamanlar dünyada geniş yayılmış koronavirus (COVID-19) pandemiyası ölkəmizdə də ciddi problemlər yaratmağa başladı. Əhalinin işgüzar hissəsi müvəqqəti olsa da “evdə qal” kampaniyasına qoşuldu. Cənab Prezident, bu virusla uğurlu mübarizə üçün göstərdiyiniz siyasi iradə, qayğıkeş fəhminizlə yaradılmış tibbi şərait öz bəhrəsini verməkdədir. Hazırda virusa yoluxma halları getdikcə azalır. Həmçinin bütün səhiyyə işçilərimizə də öz minnətdarlığımızı bildiririk və etdikləri bu fədakarlıqlar üçün onları alqışlayırıq. Əminik ki, bu bəladan da qısa zamanda Sizin dəstəyiniz ilə xilas olacağıq...”

Sumqayıt şəhərinin paytaxt Bakı kimi gündən-günə gözəlləşməsi onun sakinlərinə dövlət qayğısının bariz nümunəsidir. Sumqayıtdakı Təbiət elmləri təmayüllü gimnaziyanın 8”b” sinif şagirdi **Səid Elşad oğlu Qüdrətlinin** də Prezident İlham Əliyevə ünvanlı məktubundan görünür ki, sumqayıtlılar bu çətin sınaq dövründə dövlət başçısının ətrafında sıx birləşərək ümumi bəlaya qalib gəlməyə çalışır: “Əziz Prezidentimiz! Sizin dünyanın çətin sınaq mərhələsində hadisələri öncədən görməyinizi və qabaqlayıcı tədbirlərin təşkilini alqışlayır və dərin minnətdarlığımızı bildiririk. Bu tədbirlər təhlükəli virusun Azərbaycanda geniş yayılmasına imkan vermədi. İnanıram ki, Sizin sayənizdə Azərbaycan xalqı bu pandemiyaya da qalib gələcək və dövlətimiz gündən-günə çiçəklənəcək”.

### “Getdiyiniz yol haqq yoludur - Heydər yoludur, bu yolda Sizinləyik!”

Sumqayıtda məskunlaşan **Zülfiyyə Aftandil qızı Məmmədova** Qubadlının Saray kənd orta məktəbinin müəllimidir. Yazdığı məktubda Azərbaycanın, o cümlədən Sumqayıtın inkişafında Ulu Öndər Heydər Əliyevin ideya və arzularını gerçəkləşdirən Azərbaycan Prezidentinə təşəkkür dolu ürək sözlərini oxuyuruq: “Hörmətli cənab Prezident, bütün dünyanı dəhşətə gətirən COVID-19 pandemiyası ilə əlaqədar həyata keçirdiyiniz tədbirlər xalqımıza olan məhəbbət və sevginizin təzahürüdür. Azərbaycan koronavirusla mübarizədə ağır nəticələrlə üzləşmədi. Bu da Sizin Ulu Öndər Heydər Əliyev məktəbindən öyrəndiyiniz dərin siyasi, diplomatik biliyiniz və vətənsevərliyiniz sayəsində mümkün oldu.

Aztəminatlı ailələrə verilən müavinətlər, koronavirus xəstələrinin dövlət hesabına müalicəsi, əhalinin həssas qrupuna aid olan tələbələrin təhsil haqlarının dövlət hesabına ödənilməsi, kommunal ödənişlərə edilən güzəştlər insanların Sizə inamını daha da artırdı. Sizin və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xalqa ünvanlanan doğma və qayğıkeş müraciətləriniz, həqiqətən, bizim birlikdə güclü olduğumuzu sübut etdi. Dünyamıza, ölkəmizə, Sizə, ailənizə və doğmalarınıza sağlam həyat diləyirik”.

**Kərim Novruzov** Ağdamda dünyaya göz açıb. Azərbaycan Prezidentinə ünvanladığı məktubda bütün dünyanı bürümüş pandemiyanın fəsadlarından qorunmaq üçün dövlət başçısının təşəbbüs və tələbləri ilə həyata keçirilən qabaqlayıcı tədbirləri alqışladığını yazır: “Bu gün bütün xalqımızın vətəndaşlıq nümunəsi göstərmək məqamıdır. Hər kəs əlindən gələni mövcud şəraitə uyğun olaraq ən yaxşı şəkildə və keyfiyyətlə yerinə yetirməlidir.

Bir tarix müəllimi kimi bütün imkanlardan istifadə edərək, şagirdlərimin təhsildən geri qalmamaları üçün əlimdən gələni əsirgəmirəm. Bundan başqa, dövlətimizin bu bəladan qorunması üçün istənilən tapşırıqları yerinə yetirməyə hazıram.

Cənab Prezident, Sizə bir daha uzun ömür, cansağlığı və xalqımızın rifahı naminə fəaliyyətinizdə uğurlar diləyərək deyirəm ki, getdiyiniz yol haqq yoludur. Bu yol Heydər yoludur və bu yolda Sizinləyik!”

Daha bir məktəbli məktubunu Bərdə rayonunun Cəyirli kəndindən **Nurlan Ramin oğlu İlyaslı** yazıb: “Möhtərəm Prezident! Səkkizinci sinifdə oxuyuram. Əvvəllər də gördüyünüz işlərdən ruhlanaraq Sizə məktubla müraciət etmişdim. Sizin sərəncamınızla banklara borcu olan şəxslərə hərtərəfli kömək edilməsi üçün hazırlanmış plan məni çox təsirləndirmişdi. Buna laqeyd qala bilməmiş, bir məktəbli, gələcəyin əsgəri kimi Sizə minnətdarlıq məktubu yazmışdım. Hazırda da Sizin respublikamızda apardığınız işlər məni yenidən şövqə gətirib. Buna görə də bir daha minnətdarlıq məktubu yazmaq qərarına gəldim”.

### “Siz bu çətinliyə də etibarlı sipər oldunuz: xalqımızı qorudunuz”

Məlum COVID-19 virusunun ölkəmizdə qarşısının alınması məqsədilə ölkə başçısının verdiyi sərəncam və fərmanları ailə üzvləri ilə birlikdə dəstəklədiyini yazan məktəbli məktub müəllifi xüsusi olaraq vurğulayır ki, görülən tədbirlər nəticəsində ölkəmizdə itki daha az oldu, sahibkarlara, fermerlərə dəyən zərərin aradan qaldırılmasına dəstək göstərildi, xalqımızın yaşayış səviyyəsinin aşağı düşməməsi üçün həyata keçirilən sosial-humanitar tədbirlər isə göz qabağındadır:

“Cənab Prezident, bu çətin dövrdə Siz bizim xalqımıza ata, baba, qardaş, öz doğma, əziz övladlarınız kimi yanaşırsınız. Hamının çətinliyini, problemini özünüzünkü kimi qəbul edirsiniz. Hörmətli Mehriban xanımın xalqımıza ünvanladığı müraciət isə ayrıca bir mövzudur. Mehriban xanım öz müraciətində Azərbaycan xalqına bir bacı, ana, nənə kimi müraciət etdiyini göstərdi. Həmin müraciəti həvəslə dinlədim və oxudum. İnanıram ki, Sizin sayənizdə tezliklə COVID-19 virusundan qurtulacaq, yenidən məktəbə gedəcəyik. Siz mənə çox doğma insansınız”.

**Mehman Mehtiyevlə Adil Xaliqovun** Bakı şəhərinin Xəzər rayonundan ünvanladıqları məktubdan sətirlər: “Koronavirusla mübarizə dövründə xalqımızın Sizə bəslənən ümidlərini bir daha doğrultdunuz. Cənab Prezident, Siz xalqımızı böyük bir bəladan xilas etməkdəsiniz. Sizi dəstəkləyir, bu şərəfli və məsuliyyətli işinizdə Sizə uğurlar arzulayırıq. Sizin tərəfinizdən görülən qabaqlayıcı tədbirlər pandemiya bəlasına qarşı çox səmərəli oldu. Bu virus heç kimin gözləmədiyi anda ortaya çıxdı. Lakin hər kəsin gözlədiyi kimi, Siz bu çətinliyə də etibarlı sipər oldunuz, xalqımızı qorudunuz, ölkəmizi böyük bir təhlükədən xilas etdiniz. Allah Sizə hər zaman kömək olsun”.

Hacıqabuldan **Nazim Fətixan oğlu Zeynalovun** ürək sözlərindəki səmimiyyət ilk andan hiss olunur: “Hörmətli cənab Prezident, dünyanı çənginə alan koronavirus pandemiyasının ölkəmizə təsirinin azaldılmasında müdrik və uzaqgörən siyasətiniz nəticəsində çox mühüm işlər görülüb. “Mənim üçün Azərbaycan vətəndaşının sağlamlığının qorunması, onun təhlükəsizliyinin təmin olunması hər şeydən üstündür” fikriniz bizə dünyada hər şeydən üstündür. Çünki öz xalqının taleyinə ürəkdən yanan müdrik rəhbər, dövlət başçısı kimi çətin gündə Azərbaycanın hər bir vətəndaşına sevginizi, qayğınızı ifadə edir.

Azərbaycanda virusun qeydə alındığı gündən bütün qüvvələr səfərbər edilərək, xüsusi karantin rejimi tətbiq olundu. Sizin təşəbbüsünüzlə Türk Şurasının videokonfrans vasitəsilə keçirilən Zirvə görüşündəki əhatəli çıxışınızla ölkələri əməkdaşlığa çağırdınız.

Bütün bunlar sübut edir ki, apardığınız uğurlu siyasətin mərkəzində Azərbaycan vətəndaşı, onun rifahı dayanır. Xalqımızın sağlamlığı, təhlükəsizliyi naminə göstərdiyiniz fədakarlığa, yüksək qayğıya görə rayonumuzun sakinləri adından Sizə təşəkkür edirik. Bu çətin günlərdə Siz xalqımıza dayaqsınız, xalqımız da Sizə güvənir, Sizinlə qürur duyur. Qürur duyuruq ki, dar məqamda düzgün qərar qəbul edən, xalqı təhlükədən qoruyan Sizin kimi Prezidentimiz var. Ulu Tanrı Sizi qorusun”.

“Mən gözdən əliləm. Amma Sizin xalqımız üçün etdiklərinizi, bizləri işıqlı sabaha apardığınızı görürəm. Bizi qorxulu bəladan qoruduğunuza görə Sizə təşəkkür etmək istəyirəm”.

Sabirabad rayonunun Qalağayın kəndindən gözdən əlil **Fazilə İsbat qızı Qurbanovadan** gələn məktubu həyəcansız oxumaq mümkün deyil: “Cənab Prezident, Sizin müdrik rəhbərliyinizlə nəinki pandemiyaya qalib gələcəyik, hətta işğal altında olan torpaqlarımızı da azad edəcəyik. Siz varsınız, bütün problemlər öz həllini tapacaq”.

Məktubda daha sonra deyilir: “Övladım Türkiyədə təhsil alır. Türkiyədə olan bütün tələbələr bu çətin vaxtlarda özlərini tək hiss etmədilər. Siz onlara arxa oldunuz. Çox sağ olun, var olun! Biz əlillərə göstərdiyiniz qayğıya görə Sizə xüsusi təşəkkür etmək istəyirəm. Sizinlə fəxr edirik”.

### Təşəkkür məktublarının əsas qayəsi: həyat eşqi, çətin sınaq, ümid işığı

Belə məzmunlu məktublardan biri də Tovuz rayonunun Köçəsgər kəndindən **Razim Qocayevdən** gəlib. Orada qeyd edilir ki, COVID-19 pandemiyasının dünyada səhiyyəni və sosial durumu iflic etdiyi bir vaxtda Prezidentimiz öz qərarları ilə göstərdi ki, həqiqətən də Azərbaycan güclü dövlətdir. Neftin kəskin ucuzlaşdığı bir zamanda sosial vəziyyəti zəif olan vətəndaşlara birdəfəlik ödənişin edilməsi, xalqının rifahının yaxşılaşdırılması ilə bağlı tapşırıqlar yenə sübut etdi ki, ölkəmizin neftdən asılılığı azalıb: “Cənab Prezident, bütün bunlara və sadalamağa ehtiyac duymadığım çoxsaylı humanist tədbirlərinizə görə ailəmiz Sizə minnətdarlığını bildirir. Qürur duyuruq ki, bəli, belə güclü dövlət yaratmısınız və biz bu ölkənin vətəndaşlarıyıq. Cənab Prezident, bütün bunlar Sizin sayənizdədir. Sizə minnətdarıq. Əlbəttə ki, biz Sizinlə güclüyük”.

Bəli, yuxarıdakı məktubların ümumi mənzərəsi və məzmunundan da göründüyü kimi, XXI əsrin iyirminci ilinə qədəm basanda bəşəriyyət sanki “qəflət yuxusu”ndan ayıldı: dünya doğrudanmı bir günün ərzində məhv ola bilər?! Bu sualla insan övladı güman ki, özünə hələ çox müraciət edəcək.

Bir daha yəqinləşdirdik ki, tarixən yaşananlar xalqların folklorunda, atalar sözlərində, zərb-məsəllərində yaşayırmış. Xalqımıza məxsus belə folklor nümunələrindən biri də “elnən gələn qara gün” fikridir. Bunun, əlbəttə, bayrama, şadlığa-şadyanalığa qətiyyən aidiyyəti yoxdur. Lakin çətin və amansız günlərin stresindən çıxmaq üçün zaman-zaman həmin fikir belə formalaşıb: “elnən gələn qara gün toy-bayramdır”. Yəni bu bəladan birlikdə, elliklə, həmrəyliklə çıxmaq olar.

Bu deyimin nə qədər həqiqətə yaxın olduğunu koronavirus pandemiyası yalnız bizə, yəni həmin atalar sözünü yaradan xalqa yox, əslində, bəşəriyyətə sübut etdi. Bir daha anladıq ki, bir-birimizi xilas etmək üçün həmrəyliyimiz daha vacibdir.

Nəhayət, həyat eşqi, çətin sınaq, ümid işığı - Azərbaycan Prezidenti İlham Əliyevə ünvanlanan səmimi ürək sözlərindən ibarət təşəkkür məktublarının əsas qayəsi də bax belədir...

***Məhəmməd NƏRİMANOĞLU,***
***“Azərbaycan”***

**Azərbaycanın ən yeni tarixinə nəzər salsaq, bir daha aydın olar ki, onun hər bir məqamı Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyəti ilə qırılmaz şəkildə bağlıdır. Ümummilli Lider tərəfindən həyata keçirilən sistemli tədbirlər nəticəsində ölkəmizdə siyasi və makroiqtisadi sabitliyə nail olunmuş, iqtisadi inkişafın lokomotivi olan sahibkarlar sinfinin formalaşması üçün real hüquqi baza yaradılmış, dövlət tərəfindən özəl sektora hərtərəfli dəstək göstərilməsi tədbirlərinin həyata keçirilməsinə başlanmışdır.**

**"Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur", - deyən Ulu Öndərimiz Heydər Əliyev ölkənin gələcək iqtisadi inkişafının məhz özəl sektorla bağlı olduğunu vurğulayırdı.**



# Ölkə Prezidenti çətin günlərdə də sahibkarların yanındadır

Ümummilli Liderin sahibkarlarla keçirilən görüşləri, üzləşdikləri problemlərin nədən ibarət olduğunu bilavasitə onların öz dilindən eşitməsi və bunların qısa müddət ərzində həlli üçün konkret tapşırıqlar, fərman və sərəncamlar verməsi özəl sektorun təmsilçilərinə yüksək diqqətin təzahürü idi.

Belə görüşlərə nümunə kimi 2002-ci ilin 25 aprel tarixində yerli və may ayında xarici iş adamları ilə keçirilən görüşləri göstərmək olar. Bu görüşlərdə sahibkarlığın inkişafı yolları araşdırılmış, bu inkişafa mane olan əngəllərin aradan qaldırılması üçün konkret tədbirlər müəyyənləşdirilmiş, 2002-2005-ci illər üçün Azərbaycanda Sahibkarlığın İnkişafı ilə bağlı Dövlət Proqramı təsdiq olunmuşdur.

Məhz bu görüşlərin Azərbaycan sahibkarlığının inkişafında mühüm tarixi əhəmiyyətini, habelə ölkənin iqtisadiyyatında sahibkarların artan rolunu, məşğulluğun təmin olunmasında sahibkarlığın inkişafının müstəsna əhəmiyyətini nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21 aprel 2016-cı il tarixli Sərəncamına əsasən aprelin 25-i Azərbaycanda Sahibkarlar Günü kimi təsis edilmişdir.

2003-cü ildən Heydər Əliyev siyasi və iqtisadi kursunu uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyev ötən 17 ildə milli inkişaf prioritetlərini düzgün müəyyənləşdirərək, ölkənin bütün potensialını intellektual resursların, insan kapitalının gücləndirilməsi yönümündə səfərbər etmişdir.

Bu gün hər bir sahibkar dərk edir ki, qüdrətli və müasir Azərbaycanın qurulması üçün Prezident İlham Əliyevin liderliyi altında bizi hələ bir sıra mühüm vəzifələr gözləyir. Azərbaycan biznes mühitinin əlverişliliyi, sahibkarların rahat işləməsi üçün ən çox islahatlar aparan ölkələrdən biridir. Postneft iqtisadiyyatının qurulması, idxaldan asılılığın azaldılması, ölkənin ixrac potensialının yüksəldilməsi üçün rəqabət qabiliyyətli mal və məhsulların istehsal olunması məqsədilə hökumət sahibkarlar üçün böyük imkanlar yaradıb. Ölkədə qeyri-neft sektorunun, xüsusilə də regionlarda kiçik və orta sahibkarlığın inkişafı istiqamətində mühüm işlər görülür.

Bazar iqtisadiyyatı yolunu seçmiş istənilən dövlətin müstəqil yaşaması və inkişafı prosesində orta təbəqənin - iqtisadi inkişaf və sabitliyin təminatçısı sayılan sahibkarlar sinfinin rolu müstəsnadır. Bu reallığı nəzərə alan ölkə Prezidenti milli iqtisadi inkişaf modelinin reallaşdırılmasında özəl sektorun həlledici rolunu daim önə çəkir, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin güclənməsinə çalışır.

Prezident İlham Əliyev öz çıxışlarında yerli sahibkarlara müraciət edərək bildirmişdir: "Mən çalışacağam ki, sizə maksimum dərəcədə sərbəstlik verilsin. Maksimum dərəcədə imkanlar yaradılsın ki, siz sərbəst, azad, rahat şəkildə öz fəaliyyətinizi davam etdirəsiniz". Sahibkarlığın inkişafına münasibətdə bu cür ardıcıl mövqe ölkəmizin iqtisadi potensialının hərəkətə gətirilməsi baxımından olduqca əhəmiyyətli olmuşdur.

Dövlət başçısının rəhbərliyi ilə Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasında öz layiqli yerini tutmuş, qəbul olunan dövlət proqramlarının icrası, həyata keçirilən kompleks islahatlar ölkəmizdə sabitliyi və davamlı inkişafı təmin etmişdir. Əhalinin həyat səviyyəsi yüksəlmiş, makroiqtisadi sabitlik qorunub saxlanılmış, regionların tarazlı inkişafına nail olunmuş, sahibkarlıq fəaliyyəti üçün geniş imkanlar açılmışdır.

Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirilmiş iqtisadi inkişaf strategiyası nəinki ölkəmizin inkişafında müstəsna rol oynayır, hətta bir model olaraq keçid iqtisadiyyatlı ölkələrinin iqtisadi inkişafı baxımından nümunəyə çevrilməkdədir.

Davamlı olaraq həyata keçirilən kompleks islahatlar, inzibati prosedurların sadələşdirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi, investisiya mühitinin yaxşılaşdırılması tədbirləri və institusional dəstək mexanizmlərinin tətbiqi sahibkarlığın inkişafını daha da sürətləndirmişdir. Həyata keçirilən genişmiqyaslı dəstək tədbirlərinin nəticəsində ölkəmizdə sahibkarlıq fəaliyyəti genişlənir, bütün regionları əhatə etməklə yeni istehsal və xidmət sahələri yaradılır, ölkəmizin rəqabətqabiliyyətli məhsul istehsalı imkanları genişlənir, özəl bölmənin ümumi daxili məhsulda və məşğulluqda xüsusi çəkisi artır.

Həyata keçirilmiş islahatlar və tədbirlər fonunda təsadüfi deyildir ki, bütün dünyanın qiymətləndirən ən önəmli hesabatlardan biri olan Dünya Bankının "Doing Business" hesabatlarında son illərdə ölkəmizdə reallaşan islahatlar daim vurğulanaraq nümunəvi islahatlar kimi nəzərə alınır. Belə ki, ölkəmiz 2018-ci il üçün dərc olunan hesabatda 4 və daha çox islahat aparan 3 ölkədən biri olub, 2019-cu il üçün dərc olunan hesabatda dünyanın ən islahatçı 10 ölkəsi siyahısına daxil olaraq, ən çox islahat aparan ölkə kimi qeyd edilmiş və 2020-ci il üçün dərc olunan hesabatda isə 20 ən islahatçı ölkənin sırasında yer almışdır.

Son vaxtlar aparılan islahatlar nəticəsində Azərbaycanda biznes mühiti əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Bunu bir neçə mötəbər beynəlxalq təşkilatlar da öz hesabatlarında qeyd etmişlər. Bu yaxınlarda məşhur "Heritage" Fondunun tərtib etdiyi iqtisadi azadlıqlarla bağlı reytinq cədvəlində Azərbaycan iqtisadi azadlıqlar indeksinə görə bir il ərzində 19 pillə qalxaraq, dünyada 44-cü yerdə qərarlaşmışdır.

Son illərdə təbii fəlakət və digər hadisələr nəticəsində zərərçəkmiş sahibkarlara dəymiş ziyanın dəqiq hesablanaraq kompensasiya ödənilməsi, eyni zamanda onlara güzəştli şərtlərlə kreditlərin verilməsi, habelə onların qısa müddətdə işlə təmin edilməsi barədə sərəncamlar Azərbaycan sahibkarları və sadə vətəndaşlar arasında böyük rəğbətlə qarşılanmışdır.

Məlum olduğu kimi, cari ildə bütün bəşəriyyət görünməz bir düşmənə, koronavirus pandemiyasına qarşı mübarizə aparır.

Ölkə Prezidenti İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Azərbaycanda koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün çevik və zəruri qabaqlayıcı addımlar atılmış, bu istiqamətdə ölkəmiz qlobal həmrəylik nümayiş etdirərək dünyada öz fəal rolunu oynamışdır.

Prezident İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da keçirilən Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü dövlət başçıları səviyyəsində koronavirus pandemiyasına həsr olunmuş ilk beynəlxalq tədbir kimi tarixə düşmüş və ölkəmiz pandemiyaya qarşı görülmüş tədbirlərə görə nümunəvi ölkə kimi dəyərləndirilmişdir.

Mayın 4-də isə İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü keçiriləcəkdir. Bu Zirvə görüşündən sonra 2022-ci ilədək Qoşulmama Hərəkatına rəhbərliyi Azərbaycan həyata keçirməklə, bu dövrdə hərəkatın sədri Prezident İlham Əliyev olacaqdır.

Prezidentin təşəbbüsü ilə təsis edilmiş Azərbaycanda Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianələrin köçürülməsi və işçilərin ixtisar olunmaması ilə bağlı çağırışlara sahibkarlar da qoşularaq yüksək həmrəylik nümayiş etdirmişlər.

Modernləşmə kursunu həyata keçirən Azərbaycan Respublikasında iqtisadi və sosial tərəqqiyə yönəlmiş dövlət siyasəti öz bəhrəsini verməkdədir. Təsadüfi deyil ki, koronavirus pandemiyasının təsirindən yaranmış dərin maliyyə böhranı bir sıra ölkələrdə iqtisadiyyatın tənəzzülə uğramasına və sosial gərginliyin artmasına gətirib çıxardığı bir vaxtda, ölkəmiz qlobal böhranın təsirindən qorunmuş və ölkəmizdə sosial-iqtisadi inkişaf, vətəndaşlarımızın rifah halının yüksəldilməsi tədbirləri ardıcıl davam etmişdir.

Belə bir çətin şəraitdə Azərbaycan hökuməti ölkə sahibkarları üçün dəstək mexanizmlərini işə salmış, pandemiyadan zərər çəkən iqtisadi fəaliyyət sahələrinə Vergi Məcəlləsində güzəştlər nəzərdə tutmuşdur. Qanunda həmin sahələrin adı verilməklə, karantin rejiminin sərtləşdirilməsi və yumşaldılması dövründə yeni fəaliyyət sahələrinin əlavə edildiyi təqdirdə onların da bu güzəştlərdən faydalanması nəzərdə tutulmuşdur. Qanun layihəsinə əsasən, pandemiyadan zərər çəkən sahibkarlıq subyektləri 2020-ci il üzrə əmlak və torpaq vergisindən azad edilir.

Həmin sahibkarlara 2020-ci ilin nəticələrinə görə mənfəətdən 75 faizlik güzəştin verilməsi də nəzərdə tutulur. Mənfəət vergisi ödəyicilərinin 2019-cu ilin nəticələrinə görə mənfəət vergilərinin də ödənilməsi martın 31-dən sentyabrın 1-dək təxirə salınır. Mikro sahibkarlar xüsusi həssas kateqoriyaya aid olduğu üçün hansı sahədə fəaliyyət göstərməsindən asılı olmayaraq, bu gün onlar üçün Vergi Məcəlləsində mövcud olan 2 faizlik sadələşdirilmiş verginin dərəcəsi bu il 1 faizə endirilir.

Sadələşdirilmiş verginin xüsusi növləri olan, məsələn, ictimai iaşə obyektləri üzrə sadələşdirilmiş vergi 8 faizdən 4 faizə, sərnişindaşıma sahəsində fəaliyyət göstərən sahibkar üçün isə nəqliyyat vasitəsində oturacaqların sayına görə müəyyən olunan sadələşdirilmiş verginin dərəcəsinin 50 faiz aşağı salınması nəzərdə tutulur.

Bütün sahibkarlıq subyektlərində fiziki şəxslərdən icarəyə götürülən daşınmaz əmlaka görə mənbədən tutulan 14 faizlik vergi 7 faizə endirilir.

Aparılan islahatlar, müxtəlif sahələri əhatə edən dövlət proqramları və genişmiqyaslı infrastruktur layihələrinin uğurla icra olunması Azərbaycanı dünyada güclü və demokratik dövlət, nüfuzlu və etibarlı tərəfdaş kimi tanıtmışdır.

Biznes mühitinin yaxşılaşdırılması və qeyri-neft sektorunda sahibkarlığın inkişaf etdirilməsi sahəsində görülən tədbirlərin nəticəsində sahibkarlıq subyektlərinin sayı 4,2 dəfə, hüquqi şəxslərin sayı 2 dəfə, kiçik müəssisələrin sayı 2 dəfə, fərdi sahibkarların sayı 5 dəfə artmış, ümumilikdə isə müstəqillik qazandıqdan sonra ölkə iqtisadiyyatına 250 milyard dollardan çox investisiya qoyulmuşdur.

Sahibkarlığa dövlət dəstəyi tədbirləri sayəsində sahibkarlıq subyektlərinin sayının son 16 il ərzində artması nəticəsində özəl sektorda iş yerlərinin əsaslı şəkildə artması bu prosesin dönməz xarakter aldığını bir daha təsdiq edir.

2020-ci ilin aprelin 14-də Nazirlər Kabinetinin 2020-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyevin diqqət yetirdiyi əsas məqamlardan biri məhz sahibkarlıqla bağlı olmuşdur. İclasda bildirildi ki, Azərbaycan Respublikası Prezidentinin 19 mart tarixli sərəncamı ilə pandemiyanın məşğulluğa, sahibkarlara və iqtisadiyyata mənfi təsirlərinin azaldılması üzrə təkliflərin hazırlanması məqsədilə yaradılan işçi qrupların təqdim etdiyi təkliflər əsasında Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş Tədbirlər Planından irəli gələn məsələlərin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ilkin olaraq 1 milyard manat vəsait ayrılıb və artıq bu vəsaitin maliyyələşdirilməsi başlanılıb. Dövlət fondları və digər maliyyə resursları səfərbər edilərək ümumi maliyyə dəstək paketi 3,5 milyard manatdan artıq olub. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə məşğulluq tədbirlərinə maliyyələşmə artıq açılıb, eyni zamanda İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu vasitəsilə sahibkarlara maliyyə dəstək tədbirləri həyata keçirilməkdədir.

2019-cu ildə qəbul edilmiş qərarlar və həyata keçirilən islahatlar qısa müddət ərzində öz nəticələrini vermiş, 2020-ci ilin birinci rübündə iqtisadiyyatın qeyri-neft sektoru 3 faiz, qeyri-neft sənayemizin artımı 23 faiz səviyyəsində olmuş, kənd təsərrüfatı 3,7 faiz artmışdır. Bütün çətinliklərə baxmayaraq, birinci rübdə qeyri-neft ümumi daxili məhsulunun 3,5 faiz səviyyəsində artımına nail olunmuşdur.

Sərbəst bazar münasibətlərinə, özünütənzimləməyə əsaslanan iqtisadi sistemdə insanların sosial müdafiəsinə və rifahına hesablanmış müxtəlif layihələrin, ən başlıcası mənəvi-etik dəyərlərin yad təsirlərdən qorunması xüsusilə aktualdır. Elmi-texniki inqilabın məhsulu olan müasir informasiya texnologiyaları müsbət tərəfləri ilə yanaşı, insanlar arasında olan mənəvi idealları ifrat maddiləşmənin mənfi təsirlərinə məruz qoyur. Bu təsirləri zərərsizləşdirmək isə yalnız yüksək mənəviyyatlı şəxsiyyətlərin üzərinə düşür.

Hazırda bu nəcib missiyanı yüksək mənəvi məsuliyyətlə üzərinə götürərək şərəflə, əzmlə, təmənnasızlıqla həyata keçirən insanlar arasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ön sırada dayanır. İnamla deyə bilərik ki, Ülu Öndərin ali ideyalarına əsaslanan, dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasətə layiqli töhfələrini verən Azərbaycanın Birinci vitse-prezidentinin milli mədəniyyətin, mənəvi dəyərlər sisteminin qorunmasında, cəmiyyətə sağlam dəyərlərin aşılanmasında müstəsna xidmətləri vardır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti olduğu qısa müddətdə öz zəngin fəaliyyəti ilə təkcə ölkəmizdə deyil, bütün dünyada yüksək nüfuz, dərin ehtiram qazanmış Mehriban xanım Əliyeva Azərbaycanın inkişaf etmiş dövlətlər səviyyəsinə çatdırılmasının qarşıda duran ən başlıca məqsəd olduğunu bəyan etmişdir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanımın ölkə iqtisadiyyatının aktual problemlərinə olan həssas münasibəti Azərbaycan sahibkarları tərəfindən yüksək qiymətləndirilir.

2019-cu ilin noyabrın 23-də Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi altında Moskvada keçirilmiş 10-cu Azərbaycan-Rusiya Regionlararası Forumunda Azərbaycan Sahibkarlar Konfederasiyanın nümayəndələri də iştirak etmişlər. Forum zamanı kiçik və orta sahibkarlığın inkişafı, kənd təsərrüfatı, turizm sektorları üzrə panellərdə ASK prezidentinin rəhbərlik etdiyi nümayəndələr də fəal iştirak ediblər. Konfederasiya üzvləri inanırlar ki, "Azərbaycan" pavilyonunun açılışı çərçivəsində Moskvada keçirilmiş 10-cu Azərbaycan-Rusiya Regionlararası Forumu Azərbaycan sahibkarlarına münbit şərait yaratmaqla yanaşı, hər iki ölkənin iqtisadiyyatının inkişafına da əhəmiyyətli töhfə verəcəkdir.

Azərbaycan biznes mühitinin əlverişliliyi, sahibkarların rahat işləməsi üçün ən çox islahatlar aparan ölkələrdən biridir. Postneft iqtisadiyyatının qurulması, idxaldan asılılığın azaldılması, ölkənin ixrac potensialının yüksəldilməsi üçün rəqabət qabiliyyətli mal və məhsulların istehsal olunması məqsədilə hökumət sahibkarlar üçün böyük imkanlar yaradıb. Ölkədə qeyri-neft sektorunun, xüsusilə də regionlarda kiçik və orta sahibkarlığın inkişafı istiqamətində mühüm işlər görülür.

Artıq sahibkarlığın inkişafı regional iqtisadi siyasətin ən mühüm elementlərindən birinə çevrilməkdədir. Belə ki, son illər regionların sosial-iqtisadi problemlərinin həllində özəl sektora üstünlük verilir. Azərbaycan Respublikasında 2004-cü ildən uğurla icra olunan regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları rayonların iqtisadi potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yüksəlməsinə, biznes və investisiya mühitinin, əhalinin rifahının yaxşılaşmasına imkan yaradır və bununla da ölkənin strateji inkişaf hədəflərinə, müəyyən edilmiş məqsədlərə nail olunmasına əhəmiyyətli töhfəsini verir.

Bu ilin fevralın 3-də regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət proqramının birinci ilinin icrasının yekunlarına həsr olunan konfransda Prezident İlham Əliyev bir daha bu uğurları dəyərləndirdi. Dövlət proqramının icrasının təmin edildiyini vurğulayan dövlət başçısı son 16 il ərzində Azərbaycan iqtisadiyyatının dünya miqyasında rekord templərlə inkişaf etdiyini söylədi. Yalnız bir fakta nəzər yetirək. 16 ildə ümumi daxili məhsulun 3,2 dəfə artması dünya miqyasında rekord göstəricidir. Bütün iqtisadi göstəricilər onu deməyə əsas verir ki, Azərbaycan son 16 il ərzində çox uğurla inkişaf edib. Artan iqtisadi imkanlar dövlətin sosial məsələlərə də böyük diqqət yetirməsinə real imkanlar yaradıb.

Prezident İlham Əliyevin yeni inkişaf konsepsiyasına uyğun olaraq həyata keçirilən siyasət ölkədə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirdi. Dövlət başçısının söylədiyi kimi, Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir.

Regionların davamlı inkişafında və əhalinin məşğulluğunda olduqca əhəmiyyətli rol oynayan sahibkarlığın inkişafı üzrə tədbirlər davam etdirilir. Azərbaycanda regionların tarazlı inkişafını təmin etmək üçün digər sahələrlə yanaşı, bölgələrdə aqrar-sənaye kompleksinin sürətli inkişafına da nail olunmuşdur. Nəzərə almalıyıq ki, kənd təsərrüfatında ölkə üzrə Ümumi Daxili Məhsulun 5,6 faizi istehsal edilir. Əhalinin 47 faizi kənd yerlərində yaşayır və məşğul əhalinin 36,3 faizi kənd təsərrüfatında çalışır. Bu baxımdan kənd təsərrüfatının inkişaf etdirilməsi regionlardakı problemlərin aradan qaldırılmasına şərait yaratmışdır.

2019-cu il Azərbaycan üçün mühüm sosial islahatların və uğurlu iqtisadi layihələrin reallaşdığı il kimi tarixə düşmüşdür. Prezident İlham Əliyevin söylədiyi kimi, əgər geridə qoyduğumuz 2017-ci ili iqtisadi sabitləşmə, 2018-ci ili dərin iqtisadi islahatlar ili kimi başa vurmuşuqsa, 2019-cu il daha çox sosial sahədə inqilabi islahatların reallığa çevrildiyi tarix kimi yaddaşlara yazılacaqdır.

Dövlət başçısı hələ ötən ilin əvvəlində "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" fərman imzaladı. Problemli kreditlərin əhalinin xeyrinə həlli istiqamətində hazırlanan bu sənədə əsasən narahatçılığa son qoyuldu. Prezidentin bu fərmanı ilə 800 min nəfərin kredit problemi birdəfəlik həll edildi. İlham Əliyev sahibkarlarla bank arasında etimad mühitini bərpa etdi və məhkəmə çəkişmələri sahibkarın xeyrinə həll olundu.

Göründüyü kimi, Azərbaycan Prezidenti İlham Əliyev yeni prezidentliyi dönəminin ilk ilində həyata keçirdiyi düşünülmüş və məqsədyönlü siyasətlə ölkəmizin inkişafı və xalqımızın əmin-amanlıq şəraitində yaşamasının təmin edilməsi üçün verdiyi bütün vədləri vaxtında və yüksək səviyyədə yerinə yetirir.

Dövlət proqramlarının icrası nəticəsində bölgələrin siması bütünlüklə dəyişdi. Regionlarda sənayenin, aqrar sektorun inkişafına təkan verildi. Sənaye parkları, aqroparklar, fabrik və zavodların açılışı vaxtilə işsizlik səbəbindən paytaxta üz tutan insanları yenidən regionlara qaytardı və hazırda həmin müəssisələrdə yüzlərlə insan çalışır.

Həyata keçirilən məqsədyönlü siyasət və struktur islahatları sayəsində 2019-cu ildə ölkəmizdə makroiqtisadi sabitlik təmin edilib, iqtisadi artım prosesləri sürətlənib və iqtisadiyyatın dayanıqlı inkişafı yeni mərhələyə daxil olub. Ötən ildə qeyri-neft sektorunda ÜDM-in 3,5 faiz və qeyri-neft sənayesində isə 14,3 faiz artmasında regionların da böyük rolu olub. 2019-cu ildə regionların sosial-iqtisadi inkişafının dördüncü Dövlət proqramı çərçivəsində 7,2 milyard manat vəsait yönəldilib.

Ölkənin on bölgəsində sənaye zonalarının yaradılması sənayeləşmə prosesinə təkan verib. Ümumilikdə indiyədək sənaye zonalarında rezidentlər tərəfindən 6 milyard manata yaxın investisiya yatırılıb və 9 mindən çox yeni iş yeri yaradılıb. Ötən ildə bu zonalarda istehsalın ümumi həcmində 2,6 dəfə artım qeydə alınıb.

İndiyədək verilmiş investisiya təşviqi sənədləri üzrə layihələrin reallaşması yerli istehsala 4 milyard manatdan artıq investisiyanın yatırılmasına, 28 minədək yeni iş yerinin açılmasına səbəb olacaq. Bu layihələrin 87 faizi regionların payına düşür. Sahibkarlığın inkişafına dövlət dəstəyi göstərilməsi sayəsində Sahibkarlığın İnkişafı Fondu tərəfindən güzəştli kreditlərin verilməsi işləri davam etdirilir. Qeyd olunmalıdır ki, bu prosesin dövlət büdcəsinə əlavə yük yaratmadan həyata keçirilməsi üçün kreditləşdirmə geri qaytarılan vəsaitlər hesabına təmin edilir. 2019-cu ildə bunun hesabına 1573 sahibkarlıq subyektinə 175 milyon manat məbləğində güzəştli kredit verilib.

Ümumilikdə, İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri hesabına indiyədək investisiya layihələrinin ümumi dəyəri 5,1 milyard manat olan 35 mindən çox sahibkara 2,3 milyard manat güzəştli kredit verilmişdir. Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması nəticəsində 165 minə yaxın yeni iş yerinin açılması imkanı yaradılıb. Güzəştli kreditlərin 72 faizi aqrar sektorun, 28 faizi sənaye və digər sahələrin inkişafına yönəldilib. Bu kreditlərin 75 faizi regionların, 25 faizi Bakı qəsəbələrinin payına düşür.

İxracın təşviqi və qeyri-neft məhsullarının ixracı zamanı çəkilən xərclərin bir hissəsinin qaytarılması mexanizmi çərçivəsində keçən il də yerli ixracatçılara 9 milyon manata yaxın vəsait qaytarılıb. Hazırda Azərbaycan məhsullarının ixrac coğrafiyasını genişləndirmək imkanları araşdırılır. Əsas məqsəd yalnız rəqabətqabiliyyətli və yüksək keyfiyyət standartlarına malik yerli məhsullara milli keyfiyyət nişanı olan "Made in Azerbaijan" brendini verməklə onların xarici bazarlara çıxışını genişləndirməkdir. Dövlət proqramlarının uğurlu icrası nəticəsində əvvəlki illə müqayisədə 2019-cu ildə kənd təsərrüfatı emal müəssisələrinin ixracı ümumilikdə 14 faiz artıb. Ölkənin aqrar sektorunun inkişafında böyük rol oynayan 33 rayonunda 51 aqropark və yerli fermer təsərrüfatının yaradılması ilə bağlı planlar çərçivəsində 2019-cu ildə 16 aqropark və ya fermer təsərrüfatında işlər başa çatıb.

Kənd təsərrüfatının subsidiyalaşdırılması və vergilərdən azad edilməsi, texnika və gübrələrin güzəştli şərtlərlə verilməsi, investisiyalar və ixracın təşviqi, digər dövlət dəstəyi mexanizmləri regional inkişafın sürətləndirilməsində mühüm rol oynayır. Bu inkişafın daha bir göstəricisi regionlar üzrə vergi daxilolmalarının artmasıdır. 2005-ci illə müqayisədə regionların qeyri-neft sektoru üzrə ümumi vergi daxilolmalarının xüsusi çəkisi 2 dəfə artaraq 15 faizə çatıb. Əmək bazarının leqallaşması və yeni iş yerlərinin yaradılması hesabına ötən il məcburi dövlət sosial sığorta haqqı üzrə regionlardan daxilolmalar 28 faiz artıb, o cümlədən qeyri-dövlət sektorunda artım 50 faiz olub. İşsizlikdən sığorta haqqı üzrə regionların daxilolmaları 39 faiz, o cümlədən qeyri-dövlət bölməsində 70 faiz artıb. Eyni zamanda ötən il regionlarda fərdi sahibkarların sayında 12 mindən çox artım qeydə alınıb.

Ölkə iqtisadiyyatının, xüsusilə də özəl sektorun inkişafında keyfiyyətcə yeni mərhələ başlanıb. Bu mərhələdə sahibkarların fəaliyyətinə əsassız və qanunsuz müdaxilələrin, bürokratik yoxlamaların aradan qaldırılması, liberal biznes mühitinin formalaşdırılması xüsusi diqqət mərkəzindədir.

Əldə edilmiş uğurların davamlılığının təmin olunması sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsini, sahibkarlara, xüsusilə də kiçik və orta sahibkarlara göstərilən texniki, maliyyə, hüquqi, metodiki və s. xidmətlərin əhatə dairəsinin genişləndirilməsini, keyfiyyət səviyyəsinin daha da artırılmasını zəruri edir, bu sahədə institusional yanaşmanı şərtləndirir.

Bütün bunları nəzərə alaraq Azərbaycan Prezidentinin müvafiq fərmanına əsasən İqtisadiyyat Nazirliyinin tabeliyində yaradılmış Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin qarşısında qoyulan əsas vəzifə ölkədə kiçik və orta sahibkarlığın inkişafı, onun iqtisadiyyatda rolunun və əhəmiyyətinin, rəqabətqabiliyyətliyinin artırılması, inkişafının dəstəklənməsi, dövlət orqanları və təşkilatlarının bu sahədə fəaliyyətinin əlaqələndirilməsi, dövlət dəstəyi sahəsində qabaqcıl beynəlxalq təcrübənin tətbiq edilməsidir.

Prezident İlham Əliyevin bəyan etdiyi kimi, hazırda qarşıda duran ən başlıca məqsəd Azərbaycanı inkişaf etmiş dövlətlər səviyyəsinə çatdırmaqdır. Bu baxımdan ölkənin inkişafının hazırkı mərhələsində qarşıya qoyulmuş əsas hədəflər çoxşaxəli, innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, əhalinin rifahının davamlı olaraq yaxşılaşdırılması, habelə elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasıdır.

Azərbaycan Sahibkarlar Konfederasiyası bu tədbirlərin uğurla həyata keçirilməsi istiqamətində öz qüvvə və imkanlarını səfərbər etmişdir. Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası hazırda qeyri-neft sektorunun inkişafı istiqamətində ölkənin özəl sektorunda sağlam qüvvələrin birləşməsi əsasında öz işini qurur, sahibkarlara göstərilən xidmətlərin əhatə dairəsini genişləndirir, günün tələblərinə cavab verən mövzular üzrə treninqlər, seminarlar, konfranslar keçirir və sahibkarların hüquq və vəzifələrinin qorunması istiqamətində mütəmadi olaraq iş aparır.

Son illərdə respublikamızda qeyri-neft sektorunun, xüsusilə də regionlarda kiçik və orta sahibkarlığın inkişafı istiqamətində ayrı-ayrı regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları, iri infrastruktur layihələrinin həyata keçirilməsi əhalinin yoxsulluq səviyyəsinin minimuma endirilməsinə, kiçik və orta sahibkarlığın, xüsusən fermer təsərrüfatlarının daha da inkişaf etməsinə şərait yaratmışdır. Əldə olunmuş dinamik iqtisadi artımın nəticəsidir ki, Azərbaycanın "yuxarı orta gəlirli" ölkələr sırasında mövqeyi daha da möhkəmlənmişdir.

Ölkədə həyata keçirilən qeyri-neft sektorunun inkişaf konsepsiyasında ilk növbədə hüquqi və fiziki şəxslərin qismində sahibkarların fəal iştirakına geniş meydan verilməsi, sahibkarlıq subyektlərinə dövlət tərəfindən güzəştli kreditlər şəklində verilən maddi dəstəyin ilbəil artırılması və çoxsaylı digər tədbirlər Prezident İlham Əliyevin bu sahəyə diqqətini təsdiqləyən faktların yalnız az bir hissəsidir.

Sahibkarlarımız da öz müəssisələrini müasir tələblərə uyğun qurmalı, ixrac bazarlarında rəqabətqabiliyyətli məhsullar istehsal etməli, xarici bazarlarda mövcud olan geniş imkanlardan faydalanmaq məqsədilə peşəkarlıqlarını artırmalı və ixrac menecerləri cəlb etməlidirlər.

İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə sahibkarların və istehlakçıların maarifləndirilməsi məqsədilə ötən il Bakıda və regionlarda 7 konfrans və "dəyirmi masa" təşkil edilib, ticarət qaydalarına əməl olunması ilə bağlı 8 maarifləndirici məlumat 560 mindən artıq elektron ünvana göndərilib, istehlakçı hüquqlarına dair 10 adda 13 mindən artıq buklet və yaddaş kitabçası paylanılıb. Azərbaycan Sahibkarlar Konfederasiyası bu tədbirlərdə yaxından iştirak etmiş, tədbirlərin uğurla həyata keçirilməsi istiqamətində öz qüvvə və imkanlarını səfərbər etmişdir.

Konfederasiya Baş Kollektiv Sazişin tərəfdaşı kimi sosial dialoq məsələlərinə önəm verir, yalnız sahibkarlara dəstək verməklə kifayətlənmir, müvafiq dövlət qurumları, həmkarlar ittifaqları ilə əməkdaşlıq çərçivəsində ölkədə əmək münasibətlərinin tənzimlənməsində fəal iştirak edir.

Azərbaycan Hökuməti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Sahibkarlar Konfederasiyası sosial dialoqun bərabərhüquqlu subyektləri kimi kollektiv müqavilə və sazişlərin bağlanması, onlara əlavə və dəyişikliklərin edilməsi və icrasının təmini, habelə bir sıra əmək və sosial-iqtisadi məsələlərin həlli istiqamətində birgə iş aparırlar.

2020-ci ilin mart ayında Azərbaycan Respublikası Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında 2020-2022-ci illər üçün sosial əmək münasibətləri üzrə razılaşdırılmış mövqelərini və birgə fəaliyyətlərini müəyyən edən Baş Kollektiv Saziş imzalanmışdır. Eyni zamanda əmək hüquqlarının müdafiəsi, əməyin mühafizəsi, texniki və ekoloji təhlükəsizlik Azərbaycan hökuməti ilə əməkdaşlığın prioritet istiqamətlərindəndir.

Azərbaycan Sahibkarlar Konfederasiyası bir çox ölkələrin sahibkarlıq təşkilatları, xarici ölkələrin Azərbaycandakı və Azərbaycanın xaricdəki səfirlikləri, Dünya Bankı, Avropa İttifaqının komissiya və təşkilatları və digər beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq edərək yerli iş adamlarına Azərbaycanda və ölkə hüdudlarından kənarda tərəfdaşlar tapmaqda və investisiya qoyulmasında köməklik göstərir.

2019-cu ildə 19 xarici ölkəyə 25 ixrac missiyası həyata keçirilmiş, həmçinin 11 beynəlxalq sərgidə Azərbaycan vahid ölkə stendi ilə təmsil olunacaq və ixracla məşğul olan sahibkarlara maliyyə dəstəyi daha da gücləndiriləcəkdir.

Ölkəmizin rəqabətqabiliyyətli məhsullarının ixracının təşviq edilməsi məqsədilə xarici ölkələrdə 5 "Azərbaycan Ticarət Evi" açılır. Ticarət evlərində daimi fəaliyyət göstərən sərgilərdə Azərbaycan şirkətlərinin istehsal etdiyi məhsullar nümayiş etdirilir.

Azərbaycan Sahibkarlar Konfederasiyası ölkə sahibkarlarını təmsil edən bir təşkilat olaraq həm əldə etdiyimiz uğurları dəyərləndirir, həm də müasir çağırışları dərindən təhlil edir, bununla bağlı silsilə və ardıcıl tədbirlər həyata keçirir. Bu, istər qanunvericilik aktlarının təkmilləşdirilməsi, istər sahibkarlıq subyektlərinin problemlərinin öyrənilib əlaqədar təşkilatlar tərəfindən onların həllinə nail olunması, istərsə də sahibkarların maarifləndirilməsi işinin daha da dərinləşdirilməsi ilə bağlıdır.

Konfederasiya Azərbaycan iqtisadiyyatının inkişafında sahibkarlığın rolunun qorunub saxlanılmasında və inkişaf etdirilməsində genişmiqyaslı işlər aparır. Bu gün hər bir sahibkar anlayır ki, Azərbaycanın tərəqqisi və gələcək inkişafı üçün ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı tədbirlər davam etdirilməli və onlar bir sahibkar olaraq bu işdə yaxından yardımçı olmalıdırlar.

Biz də Sahibkarlar Konfederasiyası olaraq Azərbaycanda fəaliyyət göstərən bütün sahibkarları bu əlamətdar gün - Sahibkarlar günü münasibətilə təbrik edir, onlara fəaliyyətlərində uğurlar arzu edirik. İnanıram ki, ölkə sahibkarları dövlətimizin yaratdığı bu imkanlardan istifadə edərək xalqımızın rifah halının daha da yüksəlməsi, rəqabətədavamlı istehsal potensialının artırılması üçün öhdələrinə düşən vəzifələri daha məsuliyyətlə yerinə yetirəcək, yaradılan əlverişli şəraitdən səmərəli şəkildə və düzgün istifadə edərək, ölkəmizin iqtisadi qüdrətinin yüksəlməsi üçün bütün qüvvələrini səfərbər edəcəklər.

***Məmməd MUSAYEV,***
***Azərbaycan Respublikası Sahibkarlar (işəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Prezidenti***

# Akademik Zərifə Əliyevanın oftalmologiya üzrə apardığı tədqiqatlar Azərbaycan tibb elminin parlaq səhifələridir

Aprelin 28-də Dövlət Sərhəd Xidmətində (DSX) görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 97-ci ildönümü münasibətilə tədbir keçirilib. DSX-nin Mətbuat mərkəzindən bildiriblər ki, ənənəvi olaraq Dövlət Sərhəd Xidmətinin qadın hərbi qulluqçuları Zərifə xanım Əliyevanın məzarı önünə tər çiçəklər düzüblər.



Dövlət Sərhəd Xidmətinin Aparatında dünya şöhrətli alim Zərifə xanım Əliyevanın həyat və fəaliyyətini əks etdirən sərgi nümayiş etdirilib, istedadlı alim, bacarıqlı pedaqoq, qayğıkeş ana olan Zərifə xanım Əliyevanın həyat və fəaliyyəti barədə məlumat verilib.

Tədbirdə Zərifə xanımın elm üçün gözəl tədqiqatçı, Ulu Öndər Heydər Əliyev üçün ömür yoldaşı, sadiq dost, övladları üçün qayğıkeş ana və nənə, bu çevrədən kənardakı şəxslər üçün isə əsl insanlıq nümunəsi olması xüsusi vurğulanıb. Zərifə xanımın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər Azərbaycan tibb elminin parlaq səhifələridir. Zərifə xanımın 150-dən artıq elmi əsəri, 10 monoqrafiyası çap olunub. Göz xəstəlikləri üzrə elmi-tədqiqat işləri akademik Zərifə xanım Əliyevaya böyük şöhrət gətirib və onu dünya oftalmologiyası məkanında məşhurlaşdırıb.

Fundamental elmi tədqiqatları ilə oftalmologiyanın inkişafına böyük töhfələr verən akademik Zərifə xanım Əliyeva SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülən ilk qadın alim olub. Akademik Zərifə xanım Əliyeva həm də böyük ictimai iş aparıb, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü olub, "Əməkdar Elm Xadimi" fəxri adına layiq görülüb.

Tədbirdə fitri istedada malik alim, sözün yüksək anlamında pak və nəcib insan olan Zərifə xanımın xatirəsinin xalqımız tərəfindən həmişə əziz tutulacağı qeyd edilib.

***"Azərbaycan"***

# Azərbaycan kəndlisi vergilərdən azaddır

*Əvvəli 1-ci səh.*

Amma iş ondadır ki, ərzaq qıtlığının yaranması məhsul azlığı ilə yox, işsizliyin artması, alıcılıq qabiliyyətinin aşağı düşməsi, dünyada ictimai iaşə obyektlərinin bağlanması ilə əlaqədardır. Pandemiya həmçinin kənd təsərrüfatı məhsullarının satışında problemlər yaratmışdır. Vəziyyətlə bağlı çoxsaylı faktlardan bəzilərinə müraciət edək. Fransa fermerlərinin bir neçə həmkarlar ittifaqının hökumətə və Avropa Komissiyasına müraciətində sanitar qaydaların tətbiqinin onlar üçün ağır fəsadlara səbəb olacağı bildirilmişdir. Avropa ölkələrində və ABŞ-da bir sıra məhsulların xarab olub atılması, ya da su qiymətinə satılması adi hala çevrilmişdir. Fermerlərin qazancı azalmış, onlar bol məhsul istehsal etsələr də, əkib-becərdiklərini ya dəyər-dəyməzinə satmaq, ya da atmaq məcburiyyətindədirlər. Fransız fermerlərindən biri deyir ki, 200 ton kartofu fevralda 30 min avroya sata bilirdisə, bu gün onu 5 minə satmaq məcburiyyətindədir. Yetişmiş çiyələk, tərəvəz məhsulları və göyərtilər, balıq və süd məhsullarının satışı da çətinləşir. Gülçülük isə sözün əsl mənasında dalana dirənmişdir. Başqa bir misal: Avropada bu ay süd istehsalı maksimum həddə çatmışdır. Amma satılmayan məhsulu saxlamaq üçün anbarlar yoxdur. Odur ki, fermerlər onu atmaq məcburiyyətində qalırlar. Onu da xatırladaq ki, sonuncu dəfə belə hadisələr 1929-cu il böhranı zamanı baş vermişdi.

Azərbaycana gəldikdə isə onu deyə bilərik ki, Prezidentin sərəncamı ilə Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılan gündən kənd təsərrüfatına yaşıl işıq yandırılmışdır. Hazırda fermerlər və kənd təsərrüfatı texnikası maneəsiz hərəkət edir, görülməli işlər vaxtlı-vaxtında yerinə yetirilir.

Amma yerli fermerlər də bu ilin bəhərini satışa çıxaranda avropalı həmkarlarından fərqli çətinliklərlə üzləşmişlər. Rusiyada rublun məzənnəsinin düşməsi, karantin qaydalarının sərtləşməsi, minlərlə zavod, fabrik və müəssisələrin bağlanması istehlakçıların alıcılıq qabiliyyətini kəskin surətdə aşağı salmışdır. Neft ucuzlaşdıqca, işsizlərin sayı artdıqca, Rusiyanın aqrar bazarında boy verən durğunluq Azərbaycan fermerlərini də sınağa çəkir.

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan fermerləri dövlətin geniş imtiyazlar paketindən faydalanırlar. Son 16 il ərzində ölkədə kənd təsərrüfatının siması büsbütün dəyişmiş, müasirləşmiş, aqroparkların geniş şəbəkəsi yaradılmışdır. Fermerlərimiz yetərincə müasir texnika ilə təmin olunmuş, aqrar sektorun kifayət qədər geniş şaxələndirilməsi üçün ciddi addımlar atılmışdır. Baramaçılıq, pambıqçılıq, üzümçülük və digər sahələr intensiv surətdə genişləndirilir, müasir dünya təcrübəsi tətbiq edilir.

Bu gün Azərbaycan kəndlisi vergilərdən azaddır. Pandemiyanın səngimədiyi çətin günlərdə dövlətin bu cür güzəştləri əməlli-başlı kəndlinin dadına çatır. Hazırda bu gün inkişaf etmiş ölkələrdə ən ciddi problemlərdən biri işçi qüvvəsinin çatışmazlığı ilə bağlıdır. Pandemiya başlayanda bütün Avropa ölkələri öz aralarındakı sərhədləri bağlamış və nəticədə mövsümi işlərin dalınca Rumıniya, Polşa, Ukrayna və Belarusdan Fransa, Almaniya, İtaliya və İspaniyaya demək olar ki, heç kim gələ bilməmişdir. Pandemiyanın qorxusundan gəlmək istəyənlər də fikirlərindən daşınmışlar. Aqrar sektorda məhsul yetişib zay olduqca avropalılar anlayırlar ki, səhv addım atıblarmış. Azərbaycanın üstünlüyü isə ondan ibarətdir ki, bizdə Avropadan fərqli olaraq kifayət qədər təcrübəli işçi qüvvəsi mövcuddur və əhalinin demək olar ki, yarısı kənd yerində yaşayır.

Amma etiraf etmək lazımdır ki, biz də müəyyən problemlərlə üzləşirik. Xarici bazarların idarə edilməsi bizdən asılı olmasa da, daxili bazarda həm istehlakçıları, həm də fermerləri narahat edən bir məsələnin həlli həm ölkənin ərzaq təchizatında, həm də manatın güclənməsində önəmli rol oynaya bilər. Bu problem məhsulun tarladan bazaradək keçdiyi yolda bir neçə dəfə əldən-ələ keçərək qiymətlərin süni şişməsi ilə bağlıdır. Mövsümi işlərin çoxluğundan kəndlinin əli bazara çatmır və becərdiyini dəllala çox ucuz satmağa məcbur olur. Alverçilər aldıqları meyvə-tərəvəzin bir qismini rayon mərkəzinə, bir qismini də Bakıya və digər şəhərlərə daşıyırlar. Beləliklə, tarladan istehlakçıya çatanadək əldən-ələ keçən məhsulun qiyməti dəfələrlə artır. Kəndli məhsulunu çox ucuz qiymətə satır, istehlakçı isə onu od qiymətinə alır. Nəticədə satan qazancını, alan da pulunun bir qismini itirib ziyana düşür, dəllallar isə qazanır.

Sovet dönəmində kənd təsərrüfatının tədarükü müəssisələrinin Bakıda və respublikanın bütün bölgələrində satış nöqtələri var idi. Onlar yerli əhalidən və təsərrüfatlardan keyfiyyəti bir qədər aşağı olan məhsulu ucuz alaraq bütün respublikaya ucuz da satırdılar. Eyni zamanda nisbətən keyfiyyətli məhsullar böyük bazarlara çıxarılırdı. Bakıda bu bazarların sayı da kifayət qədər çox idi. Təkcə indiki Yasamal rayonunun ərazisində dörd belə bazar var idi. Bu gün bayramlarla bağlı paytaxtın müxtəlif yerlərində açılan yarmarkalar müəyyən qədər rol oynasalar da, bütün şəhəri daimi ərzaq məhsulları ilə tam təmin etmək gücündə deyillər. Görünür, başqa çıxış yollarının axtarılması lazımdır.

Qərbdə bu məsələ sistem halında çoxdan həllini tapmışdır. Kənd təsərrüfatı məhsullarının satışı ilə məşğul olan kooperativlər qazancdan daha çox fermerin məhsulunun itkisiz və sərfəli qiymətlərlə alıcıya çatdırılmasına çalışırlar. Söz düşmüşkən, bizim fermerlər də özləri birləşərək belə satış kooperativləri yarada bilərlər.

Amma reallıq ondan ibarətdir ki, pandemiya ilə bağlı Avropada və ABŞ-da satış problemləri ciddiləşmişdir və onların həllini tapmaq o qədər də asan deyil. Lakin avropalı fermerlər vəziyyətdən çıxış yollarını axtarıb özləri tapır, birbaşa istehlakçılara çıxmağa cəhdlər edirlər.

Fransanın şərqində kiçik meyvə təsərrüfatı olan xanım Odre Lurne bazarlar bağlandıqdan sonra qazancını itirmiş və birbaşa istehlakçılara bostandan və tarladan məhsul daşımaqla güzəranını dəyişmişdir. O, indi məhsulunun qalan hissəsini şəhərdə ona satışda kömək edən bina və məhəllələrin sakinlərinin sifarişləri hesabına realizə edir. Bu, dünyada bəlkə də min il əvvəl mövcud olmuş sadə ticarət modelidir. Lap bizim arşın malçı kimi.

Biz bunları fermerlərimizə qüsursuz resept kimi təqdim etmirik, sadəcə məqsədimiz müxtəlif variantları təklif etməkdir. Əlbəttə, ən yaxşı üsulu kəndli özü tapa bilər. Məşhur atalar sözündə deyildiyi kimi - "çobanın könlü olsa, təkədən pendir tutar".

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***

# Mərkəzçi Demokrat İnternasionalı Dağlıq Qarabağda keçirilmiş qondarma "seçkilər"i tanımır

Yeni Azərbaycan Partiyasının (YAP) müşahidəçi üzv olduğu və sıx əməkdaşlıq etdiyi Mərkəzçi Demokrat İnternasionalı (MDİ) Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində keçirilmiş qondarma "prezident və parlament seçkiləri" ilə bağlı bəyanat yayıb.

YAP-dan AZƏRTAC-a verilən məlumata görə, bəyanatda heç bir ölkənin Dağlıq Qarabağı dövlət kimi tanımadığı, bu səbəbdən də bölgədə keçirilən qanunsuz seçkilərin regionda uzun müddət davam edən münaqişənin həlli istiqamətində Azərbaycanla Ermənistan arasında aparılan danışıqlar prosesinə töhfə vermədiyi qeyd olunur.

"MDİ beynəlxalq hüquq prinsiplərinə və normalarına dəstəyinə və sadiqliyinə əsaslanaraq Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü tanıdığını bir daha təsdiqləyir. MDİ ATƏT-in Minsk qrupu həmsədrlərinin müvafiq bəyanatına qoşularaq bu "seçkilər"in nəticələrini tanımır", - deyə bəyanatda vurğulanır. Həmçinin bildirilir ki, təşkilat bu həssas məsələ ilə bağlı Avropa İttifaqının kəskin mövqeyini paylaşır.

Sonda isə MDİ-nin münaqişənin tez bir zamanda sülh yolu ilə dayanıqlı həllinə nail olmaq üçün ATƏT-in Minsk qrupunun səylərinə dəstəyi vurğulanır.

# Dövlət qayğısının ən mükəmməl nümunəsi

## İlham ƏLİYEV: "Əsas prioritetlər insanların sağlamlığı, onların sosial müdafiəsi və vəziyyətə uyğun şəkildə iqtisadi fəallığın artmasıdır"

*Əvvəli 1-ci səh.*

Lakin buna baxmayaraq Azərbaycan dövləti iqtisadiyyatın və sahibkarların yaranmış şəraitə görə zərər çəkməməsi üçün müvafiq tədbirlər həyata keçirir. Prezident İlham Əliyevin 2020-ci 19 mart tarixli sərəncamının icrası ilə bağlı Nazirlər Kabinetinin təsdiq etdiyi Tədbirlər Planına uyğun olaraq, Azərbaycan hökuməti beynəlxalq müstəvidə baş vermiş problemin yarada biləcəyi fəsadların neytrallaşdırılması istiqamətində zəruri olan bütün addımları atır və hazırda bu tədbirlərin icrası davam etdirilir. Belə ki, pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsi dövlət tərəfindən ödənilir, fərdi və mikro sahibkarlara maliyyə dəstəyi göstərilir.

### Heç bir sosial proqram dayandırılmır

Azərbaycan reallığında başqa bir mühüm həqiqət ondan ibarətdir ki, iqtisadiyyatda baş verən çətinliklərə rəğmən ölkədə bir dənə də olsun sosial proqram dayandırılmadı. Bir neçə gün əvvəl Prezident İlham Əliyevin Sumqayıt şəhərindəki yataqxanalarda müvəqqəti məskunlaşan 3042 məcburi köçkün ailəsi üçün Abşeron rayonu ərazisində yaşayış binalarından ibarət məhəllələrdə tikinti işlərinin gedişi ilə tanışlığı da bunu təsdiq etdi.

Ümumiyyətlə, sosial məsələlərin respublikamızda dövlət siyasətinin prioritetlərindən biri olması təcrübədə özünü göstərən reallıqdır. Əgər respublikamızın sosial inkişaf dinamikasına nəzər salsaq, davamlı şəkildə cəmiyyətin bütün üzvlərinin rifahının yüksəldilməsi yönündə mühüm qərarların qəbul olunduğunu, əsaslı tədbirlərin həyata keçirildiyini görərik. Xüsusilə qeyd edilməlidir ki, ardıcıl şəkildə pensiyaların və əməkhaqların artırılması, o cümlədən aztəminatlı ailələrin sosial müdafiəsinə ayrıca diqqət yetirilməsi respublikada reallaşdırılan sosial siyasət kursunun mühüm tərəfini təşkil edir. Bütün bunların nəticəsi olaraq yoxsulluq səviyyəsi dəfələrlə azalıb, əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində mühüm nəticələr əldə olunub.

Bu sırada xüsusən ötən il həyata keçirilən sosial islahatlar öz miqyası və vətəndaşların maddi rifahının yaxşılaşdırılması baxımından mühüm əhəmiyyət kəsb etdi. Prezident İlham Əliyevin müvafiq fərman və sərəncamlarının 4,2 milyon vətəndaşı əhatə etməsi göstərdi ki, ölkədə həyata keçirilən siyasət məhz insan amilinə xidmət edir. Minimum əməkhaqqının, əmək pensiyalarının minimum məbləğinin, sosial müavinətlərin artırılması həm vətəndaş məmnunluğuna, həm də sosial rifahın yüksəldilməsinə xidmət edən addımlar kimi ictimaiyyətin dərin rəğbətinə səbəb oldu.

### Vətəndaş rifahına xidmət edən siyasət

Qeyd edək ki, Prezident İlham Əliyev xüsusən ekstremal hadisələr zamanı verdiyi qərarlarla, ilk növbədə, vətəndaşların qayğılarına özünün həssas münasibətini göstərib, yaranmış sosial çətinlik və problemlərin həllinə yüksək diqqət göstərib. İstər yaxın tariximizdə müxtəlif bölgələrdə baş vermiş zəlzələlər, istər daşqınlar, istərsə də texnogen qəzalar zamanı Prezidentin birinci növbədə diqqət yetirdiyi məsələ vətəndaşın qayğı və problemlərinin yoluna qoyulması olub.

Təsadüfi deyil ki, koronavirus pandemiyası səbəbindən tətbiq olunmuş karantin rejimində də həyata keçirilən dövlət siyasətinin mühüm istiqamətini Prezidentin təşəbbüsləri sayəsində əhaliyə sosial dəstəyin göstərilməsi təşkil etdi. Bu barədə fikirlərini bildirən Prezident İlham Əliyev çıxışlarının birində "Bir daha demək istəyirəm, bu pandemiya dövründə bizim üçün əsas prioritetlər insanların sağlamlığı, onların sosial müdafiəsi və vəziyyətə uyğun şəkildə iqtisadi fəallığın artmasıdır", - deyə bəyan etdi.

Dövlətin indiki çətin dövrdə öz vətəndaşının yanında olmasının, Prezident İlham Əliyevin yürütdüyü siyasətin mərkəzində insan amilinin dayanmasının bariz nümunəsi olan bu tədbirlər, ilk növbədə, dövlət və özəl sektorda muzdla çalışan 1 milyon 640 minədək işçinin iş yerlərinin və əməkhaqqı gəlirlərinin qorunmasına imkan verdi. 600 minədək aztəminatlı işsiz şəxsi əhatə edən birdəfəlik ödəmə proqramına başlanıldı. İndiyədək 400 min nəfər üçün birdəfəlik ödəniş vəsaiti köçürülüb. 100 minədək aztəminatlı ailə ərzaq yardımı ilə təmin olunub və bu proses davam edir. Prezident İlham Əliyevin tapşırığına əsasən məşğulluq imkanlarının artırılması üçün ödənişli ictimai iş yerlərinin sayı isə 90 minə çatdırılacaq. Son 10 gündə əlavə olaraq 18 min ödənişli ictimai iş yeri yaradılıb.

Bütün bunlar göstərir ki, dövlət çətin günlərdə öz vətəndaşını unutmur, onun sosial baxımdan çətinlik çəkməməsi üçün nə lazımdırsa edir. Ən əsası atılan bütün sosial addımlarla cənab İlham Əliyev pandemiya şəraitində vətəndaş rifahına xidmət edən siyasətin, Prezident qayğısının ən mükəmməl nümunəsini yaradır.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib

Fərhad Abdullayevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun xüsusi konstitusiya icraatı qaydasında növbəti açıq məhkəmə iclası keçirilib. Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Şəki Apelyasiya Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 83.4-cü maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim İ.Nəcəfovun məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 83.4-cü maddəsinə uyğun olaraq, məhkum edilmiş şəxs amnistiya aktı əsasında vaxtından əvvəl cəza çəkməkdən azad edildikdə, məhkumluğun ödənilməsi müddəti şəxsin cəzanı çəkməkdən azad edildiyi, yəni səlahiyyətli orqanın konkret şəxs barəsində amnistiya aktının tətbiq olunması barədə qərarının qüvvəyə mindiyi gündən hesablanmalıdır.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

# Fövqəladə Hallar Nazirliyi sosial dəstək tədbirlərini davam etdirir






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Biz birlikdə güclüyük!" çağırışına əsasən, Fövqəladə Hallar Nazirliyi (FHN) ölkəmizdə koronavirus (COVID-19) pandemiyasının yayılmasının qarşısının alınması məqsədilə hazırda davam edən xüsusi karantin rejimi ilə əlaqədar sosial dəstək tədbirlərini davam etdirir.

FHN-dən AZƏRTAC-a bildiriblər ki, nazirlik tərəfindən növbəti belə tədbirə Bakı şəhərinin Binəqədi, Xətai, Qaradağ, Nərimanov və Nəsimi rayonları, habelə respublikanın Abşeron, Qəbələ, Beyləqan və Bərdə rayonlarında başlanılıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin verdiyi siyahılar əsasında FHN əməkdaşları tərəfindən göstərilən rayonlarda yaşayan yaşı 65-dən yuxarı tənha şəxslərə və aztəminatlı ailələrə, o cümlədən şəhid ailələrinə ərzaq məhsullarından ibarət yardımlar çatdırılır. Dörd min ailə üçün nəzərdə tutulan sosial yardım bağlamalarını çatdıran FHN əməkdaşları vətəndaşlarla maarifləndirici söhbətlər də apararaq, xüsusi karantin rejiminin qaydalarına riayət olunmasının əhəmiyyətini vurğulayırlar.

# Paşinyan hökuməti devalvasiyaya gedir

## Koronavirus Ermənistanın çöküşünü sürətləndirir

Ermənistanda açıqlanan son məlumatlar göstərir ki, işğalçı ölkədə koronavirusa yoluxmalar daha çox artmaqdadır. Ölkənin Səhiyyə Nazirliyinin Xəstəliklərə Nəzarət və Profilaktika üzrə Milli Mərkəzinin statistikasından belə bəlli olur ki, artıq Ermənistanda virusa yoluxanların sayı 1500-ü ötüb, ölənlərin sayında gündəlik artım müşahidə olunur. Elə bu fonda pandemiya ilə bağlı Ermənistan üçün yeni ciddi çətinliklər meydana çıxıb. Söhbət xaricə iş dalınca gedən ermənilərin geri qayıtmasından gedir.

Çətin iqtisadi durumda olan Ermənistan üçün geri qayıdanların ölkədə yeni sosial gərginlik yaratması qaçılmaz sayılır. Söhbət, ilk növbədə, Rusiyada olan çoxsaylı ermənin geri qayıtmasından gedir. Ermənistanın Diasporla İş üzrə Baş Komissarı Zareh Sinanyan məsələ ilə bağlı bildirir: "Rusiyada nə mənzil, nə də iş yeri olan və vətənlərinə dönmək istəyən çox sayda erməni var. Hal-hazırda onlar üçün yaşayış yeri axtarırıq. Problem həm də xaricdəki bir çox erməninin koronavirusa yoluxmuş olması ehtimalıdır, bu isə vətəndaş olmayanlara bir çox yerdə tibbi xidmət göstərilməməsi ilə əlaqələndirilir. Bu mənada problem, yumşaq desək, ciddidir".

Yeri gəlmişkən, qeyd edək ki, artıq uzun müddətdir Moskvadakı səfirlik, erməni mediası Rusiya hava limanlarında qalan ermənilərin əlverişsiz vəziyyətinə dair materiallar dərc edirlər. Hətta bu durumda Ermənistandan Rusiyaya pul köçürmələrinin həcminin artdığı da məlumdur. Ermənistanın "Lragir.am" nəşri yazır ki, əvvəllər xaricə işləməyə gedənlər ailələrinə pul göndərirdisə, indi ailələr orada qalan işsizləri üçün Rusiyaya pul göndərirlər: "Dünyadakı mövcud vəziyyət epidemiya və iqtisadi böhranla bağlı mürəkkəbdir, lakin Rusiyada bu böhran ikiqat daha çoxdur. Rusiya sanksiyalar altındadır, digər tərəfdən, enerji qaynaqları "iynəsində oturan" bir xammal ölkəsidir. Hazırda bu enerji ehtiyatları nəinki qiymətsizdir, həm də tələbat belə yoxdur. Üstəlik, rusiyalı ekspertlərin fikrincə, pul kütləsi ölkədən çıxarılır. Rusiya rəsmiləri önümüzdəki aylarda böyük bir iqtisadi böhranın və on milyonlarla işsizlərin olacağını proqnozlaşdırırlar. Həm beynəlxalq, həm də yerli ekspertlər Rusiyadakı iqtisadi böhranın ən ciddi nəticələrinin olacağını qeyd edirlər. Cinayət artmaqdadır, bu da artıq başlanmış sosial-iqtisadi problemlərlə birbaşa əlaqəlidir".

Qeyd olunur ki, bu şəraitdə təkcə epidemiya səbəbindən Rusiyada qalanların deyil, Rusiya ermənilərinin də taleyi problem altındadır. Repatriasiya Ermənistanın ən böyük dövlət məsələlərindən biri elan edilmişdi və indi baş verməzsə, bəs nə vaxt olacaq? Bu, təkcə Rusiyadakı ermənilərə aid deyil. Bunun üçün vəsaitlərə qənaət etmək lazım deyil. Buna görə vəsait mənbələrinə qənaət edilməməlidir. Amma problem həm də odur ki, Ermənistanda yetərincə vəsait yoxdur.

Pandemiyanın davam edəcəyi müddətdə ölkə iqtisadiyyatının ciddi itkilər verməsinin ardınca xaricdən gələnlərin say artımı da böyük problem deməkdir. Bu arada məlum olub ki, xarici ticarət dövriyyəsinin 50 faizini rublla həyata keçirən Ermənistan valyuta sahəsində də ciddi böhranla üzləşib. Belə ki, rubl Ermənistan dramı qarşısında da güclənməkdə davam edir. Süni şəkildə kursu saxlanan dramın yaxın vaxtlarda da möhkəmlənərək saxlanılması ölkənin bütün valyuta rezervlərini 1 aya xərcləməsinə, ixrac olunan malların isə rəqabət qabiliyyətinə mənfi təsir göstərə bilər.

Belə olan halda yaxın aylarda Paşinyan hökumətinin 10 faizlik devalvasiyaya getməsi gözlənilir. Amma baş nazir ölkədə aclıq təhlükəsi ilə bağlı fikirləri rədd etsə də, Rusiyanın öz sərhədlərini tam bağlamasının problemlərə yol açdığını etiraf edib: "Ermənistanın ərzaq idxalı ilə bağlı heç bir problemi yoxdur və idxal fasiləsiz həyata keçirilir. Rusiyanın sərhədlərini tam bağlaması malların gətirilməsi ilə bağlı müəyyən problemlərə yol açsa da, onlarla daim əlaqə saxlayırıq".

Erməni ekspert Qevork Poqosyan da karantin addımlarının ölkə iqtisadiyyatına ciddi ziyan vuracağını proqnozlaşdırır: "Koronavirus Ermənistan iqtisadiyyatına ciddi ziyan vuracaq. Dövlət sektorundan çox özəl sektor koronavirusdan zərər görəcək. Gündəlik qazancla dolanan özəl sektor isə artıq virusun ziyanlarını görüb. Ölkədə 600 min muzdlu işçi var ki, onların da üçdə iki hissəsi özəl sektordadır. Xüsusən rəsmi qeydiyyatı olmayan firma və şirkətlər pandemiyanın doğurduğu böhrandan ciddi ziyan çəkəcəklər".

Bu durumda Ermənistanın çöküşünün sürətlənməsi də qaçılmaz sayılır.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

Biz birlikdə güclüyük!

# Canda, qanda və qəlbdə xeyirxahlıq

## Mehriban xanım Əliyevanın humanizmə çağırışı irsi qan xəstəliklərindən əziyyət çəkənlərə yaşam şansı oldu

*Əvvəli 1-ci səh.*



Qan bankında ehtiyatın azalma ehtimalı ortaya çıxan andan dərhal problemin aradan qaldırılması istiqamətində lazımi addımlar atıldı. Aprelin 11-də Heydər Əliyev Fondu və Heydər Əliyev Mərkəzinin əməkdaşları qanvermə aksiyasında iştirak etdilər.

Qan xəstəliklərindən əziyyət çəkən uşaqlara yardım göstərmək və cəmiyyətin diqqətini bu sosial məsələyə cəlb etmək üçün humanist bir addım atdılar, "Qan ver, yaşat" - deyərək cəmiyyətin digər üzvlərinə də nümunə oldular.

### Bu nəcib əməlinizlə bir insan həyatının xilaskarı olursunuz

Birinci vitse-prezident Mehriban Əliyeva da həyata keçirilən bu xeyirxah təşəbbüsü alqışladı və "Facebook" səhifəsində bununla bağlı paylaşım etdi: "Şəfqət, mərhəmət, humanizm, səxavət, xoş əməllər etmək, köməyə ehtiyacı olanın yanında olmaq kimi keyfiyyətlər həmişə bizim ən mühüm həyati dəyərlərimiz olmuşdur və bu gün də belədir.

Bütün dünyanı sarsıtmış koronavirus pandemiyası ilə bağlı ölkəmizdə xüsusi karantin rejiminin tətbiq olunduğu bir vaxtda xalqımızın həmrəy olmaq, insansevərlik nümayiş etdirmək, diqqət və qayğı göstərmək bacarığı hər birimizə ancaq qürur hissi yaşadır. İrsi qan xəstəliklərindən, xüsusilə də talassemiyadan əziyyət çəkən insanlara dəstək məqsədilə Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Qan Bankı tərəfindən keçirilmiş qanvermə aksiyasında könüllü olaraq iştirak edən Heydər Əliyev Fondunun və Heydər Əliyev Mərkəzinin əməkdaşlarına təşəkkürümü bildirirəm. Siz bu nəcib əməlinizlə bir insan həyatının xilaskarı olursunuz. Bu, ən yüksək qiymətə layiqdir! Əminəm ki, sizin təşəbbüsünüz bu məsələyə laqeyd yanaşmayan və ölkəmizin yaxşılıq etməyə hazır olan bütün vətəndaşları tərəfindən dəstəklənəcəkdir! Çox sağ olun!"

### "Talassemiyasız həyat naminə"

Onu da vurğulamaq yerinə düşər ki, Mehriban Əliyevanın bu sahəyə diqqəti, problemlərin aradan qaldırılması istiqamətində görülən işlər illər öncəyə dayanır.

Hələ 2005-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə talassemiya problemlərinə həsr olunmuş "Talassemiyasız həyat naminə" mövzusunda keçirilən tədbirdə Birinci vitse-prezident Mehriban Əliyeva bu sahə üzrə ixtisaslaşdırılmış mərkəzin və qan bankının yaradılmasının vacibliyini vurğulamışdı: "Talassemiyadan ən çox uşaqlar əzab çəkir. Xəstəlik böyük-kiçik tanımasa da, uşaqların əzabı daha ağrıdıcıdır. Amma dünyada bu xəstəlikdən tamamilə sağalan insanlar var. Ona görə çox böyük iş görmək lazımdır və bunun öhdəsindən yalnız birlikdə gəlmək olar. Həm dövlət, həm də ictimaiyyət, fondlar, imkanlı insanlar birlikdə bu bəlanın qarşısını ala bilərlər. Heydər Əliyev Fondu üçün isə əsas məsələ ixtisaslaşdırılmış mərkəzin və qan bankının yaradılmasıdır.

Beləliklə, biz bu gün bu problemin həlli yolunda birinci addımı birlikdə atdıq. Heydər Əliyev Fondu bu istiqamətdə hər bir yardımı dəstəkləyir və təklifləri gözləyir".

Bəli, artıq bu gün həmin tədbirdə qarşıya qoyulan xeyli hədəflərə çatılıb və ən əsası da xəstəliyin artmasının qarşısının alınması istiqamətində aparılan işlər uğurla həyata keçirilib və proses bu gün də müvəffəqiyyətlə davam edir.

Qeyd edək ki, 2009-cu ildə uşaqların sağlamlığının qorunması prioritet istiqamətlərindən biri olan Heydər Əliyev Fondunun proqramı çərçivəsində tikilən Talassemiya Mərkəzinin açılışında Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva iştirak ediblər.

Talassemiyalı xəstələr bu mərkəzdə daimi müalicə alır, həmçinin müvafiq tədbirlər nəticəsində qan və onun komponentləri ilə təmin olunurlar.

Eyni zamanda ölkə başçısının sərəncamları əsasında genetik xəstəliklər olan hemofiliya və talassemiyaya dair dövlət proqramı qəbul olunub. Həmin proqramın icrasına 2005-ci ildən başlanılıb və bu proqrama əsasən bu günə qədər bütün irsi qan xəstəliyindən əziyyət çəkən, o cümlədən də talassemiya və hemofiliyalı xəstələrin dərman təminatı və müalicəsi pulsuz həyata keçirilir.

### İllərdir ki, ölkəmizdə qanvermə aksiyaları keçirilir

Hazırda Azərbaycanda təxminən 1500-ə yaxın irsi qan xəstəliyindən əziyyət çəkən xəstə var. Milli Hematologiya və Transfuziologiya Mərkəzinin bölgələrdə 8 regional qan mərkəzi var və mərkəz regional qan mərkəzlərinə də öz yardım və dəstəyini göstərir.

Onu da qeyd etmək lazımdır ki, ölkəmizdə 10 ildən artıqdır ki, talassemiya, eləcə də irsi qan xəstəliklərindən əziyyət çəkənlər üçün qanvermə aksiyaları keçirilir və ictimaiyyətimiz bu xeyriyyə aksiyalarında fəal iştirak edir.

Elə indi, koronavirus pandemiyasının tüğyan etdiyi bir zamanda da qana ehtiyacı olanlara yardım edən xeyli sayda mərhəmətli vətəndaşımız var. Genetik yaddaşında humanistlik, köməyə ehtiyacı olana əl tutmaq kimi nəcib hissləri qoruyan Vətən övladları Azərbaycanın hər bölgəsindən, şəhərindən və kəndindən Mehriban xanımın xeyirxahlığa dəvətinə səs verdilər. Qan verib yaşatmaq üçün candan, qəlbdən və könüldən gələn bu insanpərvər çağırışa qoşuldular...

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# "Azərişıq" ASC ölkənin şimal və qərb regionlarında sosial aksiya həyata keçirir

Karantin rejimində maddi ehtiyacı olan respublikanın şimal və qərb regionlarının sakinlərinə "Azərişıq" ASC əməkdaşları tərəfindən ərzaq sovqatları paylanılıb.





Şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə, tənha şəxslərə və aztəminatlı ailələrə müxtəlif ərzaq məhsullarından ibarət yardımlar çatdırılıb. Şimal regionunda Quba və Xaçmaz rayonu, qərb regionunda isə Gəncə şəhəri, Samux, Tovuz, Göygöl, Ağstafa, Daşkəsən, Gədəbəy, Qazax və Şəmkir rayonlarının müxtəlif qəsəbə və kəndlərində həyata keçirilən bu sosial aksiyadan maddi ehtiyacı olan 700-dən çox ailə faydalanıb.





Dövlət başçısı İlham Əliyevin "Biz birlikdə güclüyük!" çağırışı əsasında dövlət tərəfindən həyata keçirilən tədbirlərə dəstək məqsədilə baş tutan bu aksiya sıravi vətəndaşlar tərəfindən razılıqla qarşılanıb. Sakinlər dövlət başçısı və aksiya təşkilatçılarına öz minnətdarlığını ifadə ediblər.

#Evdəqal çağırışı dövründə həyata keçirilən bu sosial aksiya karantin şəraitində ehtiyacı olan şəxslərə maddi və mənəvi dəstək olmaq məqsədi daşıyır və digər regionlarda da davam etdiriləcəkdir.

# Azərbaycanda yeni koronavirus infeksiyasına daha 39 yoluxma faktı qeydə alınıb, 59 nəfər müalicə olunaraq sağalıb

Azərbaycan Respublikasında yeni koronavirus infeksiyasına daha 39 yoluxma faktı qeydə alınıb, 59 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahdan məlumat verilib.

Hazırkı dövrədək ölkəmizdə 1717 nəferin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 1221 nəfər müalicə olunaraq sağalıb, 22 nəfər vəfat edib, 474 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 15 nəfərin vəziyyəti ağır, 22 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 132.640 test aparılıb.

# Azərbaycan koronavirusla mübarizədə qələbəyə yaxınlaşmaqdadır

Aylardır dünya ölkələri bütün səylərini yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizəyə və profilaktika tədbirlərinə yönəldib. COVID-19 xəstəliyi martdan etibarən Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən pandemiya elan olunaraq virusun qarşısının alınması istiqamətində bir sıra təxirəsalınmaz tədbirlər həyata keçirilir.

Buna baxmayaraq, dünyada bu virusa yoluxanların sayı 3 milyona yaxınlaşır. Belə ki, aprelin 26-dan 27-nə keçən sutka ərzində yeni koronavirusa yoluxanların sayı 85 mindən çox artıb ki, bu da əvvəlki gündən bir qədər çoxdur. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, dünyada 2878196 yoluxma və 198668 ölüm halı qeydə alınıb. Sutka ərzində yoluxanların sayı 85530, ölüm halları isə 4982 nəfər artıb. Ən çox yoluxma və ölüm halları Avropa regionunda qeydə alınıb. 24 saat ərzində orada yoluxanların sayı 29659, ölüm halları isə 2307 nəfər artıb.

Şimali və Cənubi Amerikada ümumilikdə 1140520 nəfər koronavirusa yoluxub, 58492 nəfər ölüb. Sutkada yoluxanların sayı baxımından (45674 nəfər) bu bölgə Avropanı üstələyir və 24 saatda daha çox ölüm halı da burada qeydə alınıb (2453).

Dünyada yoluxanların sayında üçüncü yeri Şərqi Aralıq dənizi bölgəsi tutur. Aprelin 27-nə olan məlumata görə, orada 165933 nəfər koronavirusa yoluxub və 6991 ölüm halı qeydə alınıb.

Ölkələr üzrə hesabatda ən çox yoluxma halları ABŞ-da (931698), İspaniyada (207634), İtaliyada (197675), Almaniyada (155193), Böyük Britaniyada (152844), Fransada (123279), Türkiyədə (110130), İranda (90481), Rusiyada (87147) və Çində (84341) qeydə alınıb.

ÜST Afrika, Şərqi Avropa, Latın Amerikası və bir sıra Asiya ölkələrində yoluxma hallarının artmasından narahatlığını ifadə edib. Bildirilib ki, bəşəriyyətin pandemiyanı arxada qoyacağı vaxta hələ çox var. 20-dən artıq ölkə COVID-19 problemi ilə yanaşı, bir sıra digər xəstəliklərə qarşı peyvənd çatışmazlığından əziyyət çəkir. Bunun əsas səbəbləri arasında səhiyyə sisteminin zəif olması ilə yanaşı, sərhədlərin bağlı olması və digər məhdudiyyətlər irəli sürülür ki, nəticədə də həmin regionlara müvafiq dərman və peyvəndlərin çatdırılması mümkün olmur.

ÜST-nin Baş direktoru Tedros Gebreyesus qeyd edib ki, təşkilat hələ yanvarın 30-da qlobal fövqəladə vəziyyət elan edib və dünya ölkələri ÜST-nin tövsiyələrinə vaxtında əməl etməliydilər. Vurğulanıb ki, düzgün təşkil edilən tədbirlər sayəsində virusun ikinci dalğasının qarşısı alına bilər.

### Ölkəmizdə koronavirusa yoluxma halları azalıb

Azərbaycan isə bu gün dünyanı bürümüş pandemiyaya qarşı mübarizədə ən ciddi tədbirlər görmüş ölkələrin sırasındadır. COVID-19 virusunun ölkə ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə Prezident İlham Əliyevin tapşırığına əsasən, hələ yanvar ayından ölkəmizdə həyata keçirilən zəruri qabaqlayıcı və səmərəli tədbirlər öz effektini göstərməkdədir. Azərbaycanda pandemiyanın təsirinin azaldılması və onun miqyasının məhdudlaşdırılması istiqamətində atılan mühüm addımlar nəticəsində ölkədə COVID-19-la bağlı vəziyyət nəzarət altına alınıb və insanların koronavirusa kütləvi yoluxma hallarının qarşısının alınmasına nail olunub. Azərbaycanda koronavirusla bağlı son günlərin rəqəmləri də ölkədə pozitiv statistikanın tendensiya halını aldığını göstərir. Bu da onu deməyə əsas verir ki, ölkəmiz koronavirus adlı düşmənlə mübarizədə qələbəyə yaxınlaşmaqdadır.

Elə buna görə də bu həftənin ilk günündən etibarən ölkə ərazisində tətbiq olunmuş məhdudiyyətlərin bir qismi aradan götürülüb. Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatında bildirilir ki, COVID-19 virusu ilə bağlı hazırkı sanitar-epidemioloji vəziyyət, xüsusilə də xəstəliyin yayılma dinamikası və coğrafiyası, karantin zonalarındakı şəxslərin sıxlığı, onlar arasında virusa yoluxma halları təhlil edilib və 27 aprel 2020-ci il tarixindən məhdudiyyətlərin bir qisminin yumşaldılmasına qərar verilib. Yaşayış yerini tərk etmək üçün 8103 nömrəsinə SMS məlumat göndərilərkən gələn icazələrin müddəti 2 saatdan 3 saatadək artırılıb.

Dövlət başçısı İlham Əliyevin ölkədə koronavirus pandemiyasının geniş yayılmasının qarşısının alınması, əhalinin sağlamlığının qorunması ilə bağlı gördüyü işlər xalq tərəfindən yüksək qiymətləndirilir. Bununla əlaqədar ölkənin müxtəlif guşələrindən, eləcə də xaricdə yaşayan vətəndaşlarımız tərəfindən Prezidentə minnətdarlıq məktubları gəlməkdə davam edir.

### "Azərbaycan dövləti bir sıra ilklərə imza atıb"

"Pandemiya ilə bağlı mübarizədə Azərbaycan dövləti bir sıra ilklərə imza atıb. Azərbaycan əvvəldən koronavirusa qarşı mübarizədə bir sıra tədbirlər gördü və dünya ölkələri də bu təcrübədən istifadə etdilər".

Bunu Təhsil naziri Ceyhun Bayramov Nazirlər Kabineti yanında Operativ Qərargahın mətbuat konfransında bildirib.

O, həmçinin deyib ki, martın 2-də Azərbaycanda təhsil prosesinin dayandırılması pandemiyaya qarşı mübarizədə ən birinci qəbul edilən qərarlardan idi: "Bu qərar qəbul edilən zaman dünyanın cəmi 12 ölkəsi oxşar qərar qəbul etmişdi. Daha sonra dünyanın 191 ölkəsi belə qərar verdi. Bu, Azərbaycan dövlətinin pandemiya ilə mübarizədə nə qədər çevik reaksiya verməsinin göstəricisidir".

Təhsil naziri vurğulayıb ki, Azərbaycan dövləti tərəfindən qəbul edilən qərarlar - vəziyyətin nəzarətə götürülməsi, virusun insanların sağlamlığına vura biləcəyi təsirin qarşısının alınması, dövlət orqanlarının çevik reaksiyası vətəndaş-dövlət həmrəyliyi nəticəsində baş vermişdir: "Bu prosesin vacib mərhələsindəyik, ilk dəfə xüsusi karantin tədbirlərinin müəyyən qədər yumşaldılmasından danışırıq. Bundan sonra məhdudiyyətlərin geri qayıtmaması üçün hər bir vətəndaş öz davranış və məsuliyyətini ortaya qoymalıdır. Sosial məsafə, şəxsi gigiyena, insanların kütləvi toplaşmaması ilə bağlı tövsiyələrə əməl edilməlidir".

Karantin rejiminin yumşaldılması qərarına əsasən, bu həftədən ölkədə repetitor fəaliyyətinə icazə verilir. Nazirin sözlərinə görə, bununla bağlı aidiyyəti qurumlar tərəfindən təqdimatlar hazırlanır və yaxın günlərdə ictimaiyyətə açıqlanacaq. Lakin bu iş də sanitar təhlükəsizlik qaydalarına əməl edilməklə həyata keçirilməlidir.

C.Bayramov bildirib ki, Təhsil Nazirliyi buraxılış və qəbul imtahanlarının keçirilməsi ilə bağlı aidiyyəti qurumlarla sıx əməkdaşlıq edir: "Əlavə tarixlərlə bağlı konkret məlumatlar müvafiq zamanda təqdim ediləcək. Bu da mövcud şəraitdən asılı olacaqdır. Hər hansı bir çeviklik tələb olunsa, ali təhsil müəssisələrinə qəbulla bağlı təkliflər hazırlanacaq. Mövcud şəraitə uyğun olaraq çevik modellərdən istifadə olunacaq. Son iki ayın dərs proqramlarının qəbul imtahanlarına salınmaması ilə bağlı təklifə də müsbət baxıla bilər".

### Baş Nazirdən tibbi ləvazimatlarla bağlı qərar

Azərbaycan dünyada aparıcı ölkələrdəndir ki, on minlərlə insan qısa müddət ərzində müayinə edilir, əhali koronavirus infeksiyası ilə əlaqədar testdən keçirilir. Təkcə aprelin 27-də Azərbaycanda 4676 nəfər koronavirusla bağlı test edilib.

TƏBİB-in məlumatına görə, ümumilikdə koronavirusla bağlı edilən test sayı isə 130 mindən çoxdur.

Yeni koronavirusla (2019-nCoV) mübarizədə istifadə olunan bəzi tibbi ləvazimat və preparatların (steril əlcək, baxil, tibbi maska və eynəklər, dezinfeksiyaedici maddə və avadanlıqlar, xüsusi geyimlər və zəruri olan digər tibbi ləvazimat və preparatlar) Azərbaycan Respublikasının ərazisindən aparılmasının məhdudlaşdırılmasına dair müddət daha 2 ay uzadılıb.

Nazirlər Kabineti bununla bağlı "Bəzi tibbi ləvazimat və preparatların ölkə ərazisindən aparılmasının müvəqqəti olaraq məhdudlaşdırılmasına dair tədbirlər haqqında" 14 fevral 2020-ci il tarixli qərarında dəyişiklik edib. Yəni bu müddət mayın 1-dən iyulun 1-dək uzadılıb.

### Karantini pozan 967 sürücü cəzalandırıldı

Koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejiminin pozulmasına görə 27.04.2020-ci il saat 00:00-dan 28.04.2020-ci il saat 00:00-dək olan müddət ərzində respublikanın avtomobil yollarında nəqliyyat vasitələri ilə hərəkətdə olan 967 nəfər Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilib.

Ümumilikdə 01.04.2020-ci il tarixindən bu günədək respublikanın, o cümlədən paytaxtın avtomobil yollarında xüsusi karantin rejiminin pozulmasına görə 42 371 hərəkət iştirakçısı inzibati qaydada cəzalandırılıb.

Dünən DİN-ə bilavasitə tabe olan İnzibati Həbs Olunanların Saxlanılma Mərkəzində xüsusi karantin rejimini pozan, avtoxuliqanlıq hərəkətləri edərək polisin qanuni tələblərinə əməl etməyən və barələrində məhkəmələrin qərarı ilə həbs qərarı verilən şəxslərlə profilaktik görüş keçirilib. Görüşdə törətdikləri əməllərə görə cəza alan şəxslər bu hərəkətlərindən peşman olduqlarını bildirərək, digər sürücülərə yollarda daha həssas və diqqətli olmağı, karantin qaydalarına əməl etməyi tövsiyə ediblər.

Qeyd edək ki, karantin qaydalarını pozan və avtoxuliqanlıq hərəkətləri edən bu şəxslərin hər birinə 15 sutkadan 1 aya qədər müddətdə inzibati həbs cəzası verilib.

***Xəyalə MURADLI, "Azərbaycan"***

# Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin səhiyyə rəhbərlərinin onlayn görüşü keçirilib

Aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fövqəladə Zirvə görüşü videokonfrans vasitəsilə keçirildi. Dövlət başçıları Şuraya üzv ölkələrdə vəziyyəti müzakirə edib, koronavirus pandemiyası ilə mübarizəyə dair Bakı Bəyannaməsini qəbul etdilər. Tədbirdə Azərbaycan Respublikası Prezidenti bu istiqamətdə səylərin birləşdirilməsinin vacibliyini qeyd edərək, sammitdə qəbul edilmiş bəyannamənin müddəalarının icrası üçün üzv ölkələrin səhiyyə nazirləri səviyyəsində eyni formatda görüşün keçirilməsini təklif etdi. Məsələyə dair üzv dövlətləri ilə aparılan danışıqların nəticəsində aprelin 28-də videokonfransın keçirilməsi haqqında razılıq əldə olundu.

Onlayn formatında keçirilən konfransda Azərbaycan Respublikasının Səhiyyə naziri Oqtay Şirəliyev, Türk Şurasının Baş katibi Bağdad Amreyev, Ümumdünya Səhiyyə Təşkilatı Avropa Regional Bürosu direktoru Hans Klüqe, Qazaxıstan Respublikasının Səhiyyə naziri Eljan Birtanov, Qırğızıstan Respublikasının Səhiyyə naziri Sabirjan Abdikarimov, Türkiyə Cümhuriyyətinin Səhiyyə naziri Fahrettin Koca, Özbəkistan Respublikası Səhiyyə naziri Aleşer Şadmanov və Macarıstanın Dövlət səhiyyə katibi (müşahidəçi ölkə) Zoltan Lourens çıxış ediblər.

Səhiyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, müzakirələr zamanı hər bir nümayəndə öz ölkəsində COVID-19 pandemiyası üzrə sanitar-epidemioloji vəziyyət, səhiyyə infrastrukturu, diaqnostika və müalicə, karantin tədbirləri və digər məsələlər ətrafında çıxış edib. Onlayn iclasa yekun olaraq, Türk Şurasının Sammitində qəbul edilən bəyannamənin müddəalarının yerinə yetirilməsinə dair aşağıdakı qərarlar qəbul edilib:

1. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində səhiyyə sahəsində əməkdaşlıq qurulsun və tərəflərin ekspertlərindən ibarət Birgə İşçi Qrup yaradılsın;

2. COVID-19 pandemiyası və digər təhlükəli infeksiyalara qarşı mübarizədə profilaktika, diaqnostika, müalicə, epidemioloji nəzarət, elmi araşdırmalar sahəsində məlumat və təcrübə mübadiləsi genişləndirilsin;

3. COVID-19 və digər təhlükəli infeksiyalar üzrə əməkdaşlıq və koordinasiyanın genişləndirilməsi məqsədilə üzv/müşahidəçi dövlətlərin aidiyyəti nazirliklərinin ekspertlərindən ibarət Xüsusi Əməkdaşlıq Mexanizmi yaradılsın və onun fəaliyyəti Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Katibliyi vasitəsilə tənzimlənsin;

4. Pandemiyalar zamanı xəstəxanaların idarəedilməsi, laborator diaqnostika və həyati dəstək əhəmiyyətli tibbi avadanlıqlar ilə bağlı ehtiyacların qiymətləndirilməsi, eləcə də ixtisaslı tibb mütəxəssislərindən ibarət qrupların yaradılmasına dair əməkdaşlıq və təcrübə mübadiləsi aparılsın;

5. Təhlükəli infeksiyaların müalicə və profilaktikasında yeni metodların, o cümlədən, müvafiq vaksin, farmakoloji məhsulların və müalicə sxemlərinin hazırlanması sahəsində birgə əməkdaşlıq inkişaf etdirilsin;

6. COVID-19 və digər təhlükəli infeksiyalar üzrə tibb mütəxəssisləri üçün bilik və bacarıqların inkişafı proqramlarının tətbiqi, eləcə də onlayn-təlimlər təşkil edilsin.

Sonda görüşün iştirakçıları COVID-19 ilə mübarizə üçün birgə tədbirlərin hazırlanması və əlaqələndirilməsi məqsədilə gələcəkdə də belə görüşlər keçirməyə hazır olduqlarını bildiriblər.

Həmçinin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin səhiyyə sahələrinin rəhbərləri Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fövqəladə Zirvə görüşünün təşkili və bu ölkələrin Səhiyyə nazirləri səviyyəsində görüş keçirmək təşəbbüsü ilə çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə öz səmimi minnətdarlıqlarını xüsusi qeyd ediblər.

# YAP Sumqayıt təşkilatının üzvləri qan xəstəliyindən əziyyət çəkənlərə dəstək olurlar



Koronavirus (COVID-19) pandemiyası dövründə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın talassemiya, hemofiliya və digər qan xəstəliyindən əziyyət çəkən vətəndaşlar üçün qan ehtiyatının yaradılması çağırışına Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər təşkilatı da qoşulub.

Təşkilatın sədri Ramiz Hüseynov AZƏRTAC-a bildirib ki, Sumqayıt Şəhər Təcili Tibbi Yardım Xəstəxanasında keçirilən aksiyada yüzlərlə partiya üzvü könüllü olaraq bu nəcib aksiyada iştirak edirlər. Qan verənlərin ön sıralarında Milli Məclisin deputatı, uşaq Xəstəxanasının baş həkimi və şəhər təşkilatının digər fəal üzvləri də var.

# Azercell abunəçilərinin nəzərinə

30 may 2020-ci il tarixdən etibarən aşağıdakı cədvəldə göstərilən ölkədə həm fakturalı xətt, həm də fakturasız (Sim-Sim) xətt sistemlərinə aid nömrələrdə, rominq xidmətində istifadəyə görə rominq sazişi mövcud olan operatorlar üzrə vahid xidmət haqları tətbiq ediləcək.

| Ölkə | Mobil İnternet xidmətinin hər bir MB görə xidmət haqqı |
|---|---|
| QIRĞIZISTAN | 3,50 AZN |

Qeyd: Abunəçilər rominq xidməti, tarifləri, həmçinin Rominqdə İnternet Paketlərinin sifarişi və istifadə şərtləri, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.

# "Azercell"dən müəllimlərə dəstək

## Mobil operator sosial izolyasiya şəraitində onlayn tədris verən müəllimlərə internet paketi təqdim edib

Ölkənin lider mobil operatoru "Azercell Telekom" MMC koronavirus infeksiyası (COVID-19) ilə mübarizə şəraitində baş tutan növbəti sosial tədbirdə yer alıb.

Belə ki, Azərbaycan Respublikası Təhsil Nazirliyinin ümumtəhsil müəssisələrinin şagirdləri üçün məsafədən tədris imkanlarını genişləndirmək məqsədilə başlatdığı yeni layihəsi çərçivəsində Təhsil Nazirliyinin və Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (NRYTN) dəstək çağırışlarına Azercell də qoşulub. Şirkət bu məqsədlə yaradılmış "Virtual Məktəb" portalı üzərindən qeydiyyatdan keçmiş və Azercell abunəçisi olan 25000-dən artıq müəllim-pedaqoji heyətinin mobil nömrə balansına hədiyyə olaraq iki ay ərzində 10 azn dəyərində 5GB internet paketi yükləməklə təşəbbüsə öz qatqısını verəcəkdir. Qeyd edək ki, onlayn tədris üçün internet paket alacaq müəllim-pedaqoji heyətinin siyahısı www.virtual.edu.az saytında aparılan qeydiyyata əsasən Təhsil Nazirliyi tərəfindən təqdim olunur.

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 13, 15 və 18 fevral 2020-ci il tarixli nömrələrində dərc edilmiş və Dövlət satınalmalarının vahid internet Portalında (https://www.etender.gov.az) Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən keçirilən elektron satınalmalarda (eTender) Təsərrüfat avadanlıqlarının və Sutəmizləyici qurğular üçün təmir materiallarının satın alınması üzrə "Arhun Service" MMC, Yanğın siqnalizasiya sistemi üçün ehtiyat hissələrinin satın alınması üzrə "Caspian Building Systems" MMC, Mətbəə işlərinin satın alınması üzrə isə "Promoline Advertising" MMC qalib olmuşdur.

Qalib şirkətlərlə 27 aprel 2020-ci ildə hər LOT üzrə ayrıca müvafiq satınalma müqavilələri imzalanmışdır.

*Tender komissiyası*

## "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti
### *açıq tenderə dəvət edir*

Tender 2 LOT üzrə keçirilir

LOT 1 Avtonəqliyyat vasitələrinə texniki xidmət, eləcə də sürtkü materiallarının və ehtiyat hissələrinin dəyişdirilməsi və təmir xidmətlərinin satın alınması.

LOT 2 "Bakı Telefon Rabitəsi" MMC-nin daxili vəsaiti hesabına bir illik outstaffing xidmətlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər

**LOT 1 500 (beş yüz) manat (ƏDV daxil)**
**LOT 2 450 (dörd yüz əlli) manat (ƏDV daxil)**

iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **22 may 2020-ci il saat 17:00-dək** aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla):

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında vergi və sosial müvafiq orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

İddiaçılar tender təklifini və bank təminatını **03 iyun 2020-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **04 iyun 2020-ci il saat LOT 1- 11:00, LOT 2- 12:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

**Qeyd: Tenderdə iştirak, tender qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada etender@gov.az dövlət satınalmalarının vahid internet Portalında aparılır.**

*Tender komissiyası*

## "Azərsu" ASC daxili vəsaiti hesabına
### *açıq tender elan edir*

"Azərsu" ASC-nin daxili vəsaiti hesabına açıq tender metodu tətbiq edilməklə elektron satınalma vasitəsilə Ceyranbatan Su Təchizatı İdarəsinin havalandırma sistemində və qazanxana binasında təmir işlərinin satın alınması

Malgöndərənlər (podratçılar) https://www.etender.gov.az-dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: **Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3(üç) il üzrə mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş 2 (iki) müqavilə) və ən aşağı qiymət təklifi.**

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

Tenderdə iştirak haqqı 200 manatdır.

**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **22 may 2020-ci il saat 16:00-a** qədər, tender təklifi və bank təminatını isə **04 iyun 2020-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **05 iyun 2020-ci il saat 16:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

*Tender komissiyası*

## Koronaböhran 195 milyon nəfəri işsiz qoyacaq

Koronavirus pandemiyası ilə əlaqədar yalnız cari ilin ikinci rübündə 195 milyon nəfər iş yerini itirəcək. Bu proqnoz BMT-nin hesabatında yer almışdır.

Sənəddə vurğulanır ki, koronavirusun doğurduğu böhran qlobal iqtisadiyyatı tarixi işsizlik səviyyəsi ilə tənəzzülə uğradır. Kiçik və orta müəssisələr, kənd təsərrüfatı, özünüməşğulluq, muzdlu işçilər, qaçqınlar və miqrant fəhlələr daha çox əziyyət çəkəcəklər.

Son məlumata görə, dünyada 3 milyon nəfərdən çox adam koronavirusa yoluxmuşdur. Dünyanın, demək olar ki, bütün ölkələrində karantin tədbirləri tətbiq edilmişdir: insanlara evdə qalmaq və imkan daxilində uzaqdan işləmək tövsiyə olunur. Amma məhdudiyyətlər fonunda kiçik biznes çökür, fərdi sahibkarlar müflisləşir, bir çox işçilər məcburi məzuniyyətə göndərilir və ya işdən çıxarılırlar.

# Beynəlxalq aləm

## Polşada 100 yaşlı partizan koronavirusa qalib gəldi



Polşanın ən yaşlı sakinlərindən biri, 100 yaşlı Stanislav Biqos yeni tip koronavirusun doğurduğu COVID-19 sətəlcəmindən sağalmışdır. Bu barədə Daxili İşlər Nazirliyinin Mərkəzi Klinik Xəstəxanasının nümayəndəsi İvona Soltıs məlumat vermişdir.

Soltısın dediyinə görə, Biqos müharibə illərində partizan və yanğınsöndürən olmuş, buna görə də həyatında çox çətinliklərdən keçmişdir. O, "Twitter"də cəsur xəstə ilə birgə fotosunu yayımlamışdır.

Son məlumata görə, Polşada 12 min nəfərdən çox adam koronavirusa yoluxmuşdur. Xəstələrin 570-i vəfat etmişdir. Ölkədə karantin rejimi qüvvədədir, sərhədlər bağlanmışdır.

## Meksikalı nazir koronavirusa yoluxdu



Meksikanın Dövlət Xidməti naziri İrma Sandovalda koronavirus aşkarlanmışdır. Bu barədə nazirliyin rəsmi saytı xəbər verir.

Nazirliyin bəyanatında deyilir ki, xəstəliyin ilk əlamətləri meydana çıxan kimi Sandoval uzaqdan işləyərək tibbi nəzarət altında təcrid olunmuşdur. Xəstəliyin ağır əlamətləri yoxdur, nazirin əhvalı pisləşməyib.

Məlumata görə, test aprelin 20-də keçirilmişdir. Testdən üç gün əvvəl Sandoval Maliyyə və Mədəniyyət nazirlərinin, həmçinin Elm və Texnologiyalar Şurası sədrinin iştirakı ilə korrupsiyaya qarşı mübarizə ilə əlaqədar iclasa qatılmışdı.

Sandoval ölkədə koronavirusa yoluxması təsdiqlənmiş ilk nazirdir.

Hazırda Meksikada 15529 nəfər koronavirus infeksiyasına yoluxmuşdur. 1434 xəstə dünyasını dəyişmişdir. Ölkədə məhdudlaşdırıcı tədbirlər gələn ayın 30-dək qüvvədədir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının İcra Katibliyi 91-lərin nümayəndəsi, akademik

**Əlişir MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, Azərbaycan Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun direktoru

**ƏLİŞİR MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Azərbaycan Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun direktoru, tibb elmləri doktoru, professor

**ƏLİŞİR VEYS OĞLU MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dekanlığı, professor-müəllim heyəti və Həmkarlar Komitəsi Mülki proses və kommersiya hüququ kafedrasının müdiri Elçin Xələfova əzizi

**ABUZƏR XƏLƏFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Əməkdar elm xadimi, professor

**ABUZƏR XƏLƏFOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlıya anası

**YAQUT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Əməkdar elm xadimi, professor

**ABUZƏR XƏLƏFOVUN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin İdarə Heyətinin sədri Ramin Bayramlı və TƏBİB-in kollektivi AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, Azərbaycan Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun direktoru

**ƏLİŞİR MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəhbərliyi Əməkdar elm xadimi, professor

**ABUZƏR XƏLƏFOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi Əməkdar elm xadimi, professor

**ABUZƏR XƏLƏFOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizova atası

**İMRAN ƏZİZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun əməkdaşları institutun direktoru, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, professor

**ƏLİŞİR VEYS OĞLU MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Cəlilabad rayonundan Qılınc, Təzəxan, İlqar və Zaur Məmmədovlar Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizova atası

**İMRAN ƏZİZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail: secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7406
Sifariş 931
Qiyməti 40 qəpik